Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 163 (8186) BAZAR, 28 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Regionun qüdrətli hərbi gücü

## Azərbaycan Silahlı Qüvvələri dünyanın modern standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır

Azərbaycanda bütün sahələrdə müşahidə olunan yüksəliş Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə başlanan, bu gün isə Prezident İlham Əliyev tərəfindən keyfiyyətcə yeni mərhələdə, dövrün tələblərinə uyğun davam etdirilən inkişaf strategiyasının bəhrəsidir.

İldən-ilə dinamik inkişaf edən Azərbaycan iqtisadi qüdrətini artırmaqla regionun əsas aparıcı dövlətinə çevrilib. Məhz bu amil dünya birliyini Cənubi Qafqazla bağlı istənilən məsələdə ölkəmizlə hesablaşmağa vadar edir.

Ona görə də indi respublikamızın iştirakı olmadan Cənubi Qafqaz bölgəsində hər hansı bir qlobal layihənin həyata keçirilməsindən söhbət belə gedə bilməz və Azərbaycan regionla bağlı məsələlərdə öz diktəsini edən tərəfdir. Amma bu, hələ başlanğıcdır. Azərbaycanın iqtisadi cəhətdən qüdrətini şərtləndirən iri layihələrin verdiyi bəhrələrin artması, bir sıra layihələrin isə tezliklə tam gücü ilə işə düşməsi, o cümlədən yeni iqtisadi islahatların davam etdirilməsi, dövlət proqramlarının icrası, qeyri-neft sektorunun inkişafı yaxın illərə hesablanan daha möhtəşəm nailiyyətlərdən xəbər verir.

Arxada qalan hər bir il ölkəmizin iqtisadi cəhətdən qüdrətlənməsi ilə əlamətdar olur. Və bu inkişaf paralel şəkildə digər sahələrin inkişafına, o cümlədən ordumuzun döyüş imkanlarının artırılması istiqamətində qarşıya qoyulan vəzifələrin daha sürətlə həyata keçirilməsinə təkan verir. Güclü ordu dövlətin və xalqın təhlükəsizliyinin əsas təməl prinsiplərindən biridir. Ona görə Azərbaycan Silahlı Qüvvələrinin döyüş qabiliyyətinin daim artırılması torpaqlarımızın işğal altında qaldığı bir vaxtda təbii olaraq qarşıda dayanan ən əsas vəzifədir. Təsadüfi deyil ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fəaliyyətində ordu quruculuğu məsələləri daim prioritetdir. Bu istiqamətdə Heydər Əliyevin başlatdığı işləri layiqincə davam etdirən ölkə rəhbərinin qarşıya qoyduğu vəzifə Silahlı Qüvvələrin döyüş qabiliyyətinin ən yüksək səviyyəyə çatdırılmasıdır.

Ardı 6-cı səh.

## "Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlıq haqqında" Sazişin təsdiq edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Monteneqro Hökuməti arasında fövqəladə hallar sahəsində əməkdaşlıq haqqında" 2019-cu il mayın 3-də Bakı şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

## "Antikorrupsiya Orqanlarının və Ombudsmanların əməkdaşlığı üçün İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Mərkəzinin (RCCACO) Nizamnaməsi"nin təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Antikorrupsiya Orqanlarının və Ombudsmanların əməkdaşlığı üçün İqtisadi Əməkdaşlıq Təşkilatının Regional Mərkəzinin (RCCACO) Nizamnaməsi" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 12 iyul 2019-cu il*

## Peru Respublikasının Prezidenti zati-aliləri cənab Martin Vizkarra Kornexoya

Hörmətli cənab Prezident!

Peru Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı ürəkdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında ikitərəfli əlaqələr dostluq və əməkdaşlıq ruhunda inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə və xalqınıza ən xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 iyul 2019-cu il*

## Düşmən snayperləri döyüş mövqelərimizdən arxa istiqamətdə hərəkətdə olan hərbi yük maşınını atəşə tutub

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) Ermənistan mətbuatının Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttində atəşkəs rejiminin pozulması barədə yaydığı məlumatlara münasibət bildirib.

Düşmən təmas xəttində yerləşən sərhəd döyüş mövqelərinə qarşı atəşkəs rejimini pozmaqla növbəti təxribat törədib. Düşmən snayperləri tərəfindən döyüş mövqelərimizdən arxa istiqamətdə hərəkətdə olan "KamAZ" markalı hərbi yük maşını atəşə tutulub. Açılan güllələrdən biri avtomobilin ön şüşəsinə dəyib. Snayperin atəş nöqtəsi cavab atəşi ilə susdurulub.

Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədində təmas xəttinin xidmət apardıqları sahəsində əməliyyat şəraitinə tam nəzarət edir.

***"Azərbaycan"***

## Cəlilabadda süfrə üzümü yığımı başlanıb

Artıq bir neçə gündür ki, Cəlilabadda süfrə üzümünün yığımı başlamışdır. Günəşin hərarəti ilə böyüyüb şirələnmiş gilələr adamın üzünə gülür.

Alar kəndinin ərazisindəki nümunəvi üzüm bağlarından biri Mehman Mustafayevindir. Şose yolunun kənarında yerləşən 31 hektar üzümlük 2010-cu ildə salınıb. Hamısı süfrə üzümüdür.

Ardı 3-cü səh.



## XV Avropa Gənclər Yay Olimpiya Festivalı




## Yüksək nailiyyət: Azərbaycan 48 ölkə arasında 4-cü oldu

Bakıda keçirilən XV Avropa Gənclər Yay Olimpiya Festivalı başa çatdı. Azərbaycan daha bir beynəlxalq idman yarışına evsahibliyi etdi. Bakı iyulun 21-dən 27-dək yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrildi.

2015-ci ildə I Avropa Oyunları, 2017-ci ildə İslam Həmrəylik Oyunları, bu il isə Avropa Gənclər Yay Olimpiya Festivalına qucaq açan Azərbaycan bir daha yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu.

Bir həftə ərzində yarışların təşkili, Festivalın təhlükəsiz şəkildə keçirilməsi ilə Azərbaycan dünyaya həm də idman ölkəsi olduğunu nümayiş etdirdi.

Ardı 5-ci səh.



## "Bir dön bizim Bakıya bax"

### İlin bütün fəsillərində paytaxtımız qonaq-qaralı olur

Yolumuzu İçərişəhərdən salıb əsrlərin yaşıdı Qız qalasınadək paytaxtın əcnəbi qonaqlarda yaratdığı təəssüratlardan bəzi məqamları qələmə alıb, fotoaparatın yaddaşına yazmalı olduq. Öncədən qeyd edək ki, hava isti olsa da, əcnəbi qonaqlarımız heç də "kölgələnmək" fikrində deyildilər. Diqqətçəkən məqamlardan biri qarşılaşdığımız turistlərin əksəriyyətinin bu il Azərbaycana ailəliklə gəlmələridir.

Bax: səh. 6



# XV Avropa Gənclər Olimpiya Festivalının təntənəli bağlanış mərasimi keçirilib





Dünyada ən mötəbər idman turnirlərinin mahir təşkilatçısı kimi tanınan Azərbaycan daha bir mötəbər beynəlxalq idman tədbirinə - "EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalına yüksək səviyyədə evsahibliyi edərək növbəti dəfə tarix yazdı. Son 7 gün ərzində dünya, o cümlədən Avropanın idman ictimaiyyətinin gözü Azərbaycanda idi. Bakı bu 7 gündə XV Avropa Gənclər Olimpiya Festivalına layiqincə evsahibliyi etdi. Burada gördükləri yüksək təşkilatçılıq, xalqımızın səmimi qonaqpərvərliyi, mədəni dəyərləri minlərlə yeniyetmə idmançının, nümayəndə heyətlərinin üzvlərinin, yarışları televiziya ekranlarından izləyən milyonlarla tamaşaçının qəlbini riqqətə gətirdi. Festivalın yarışları, sözün həqiqi mənasında, əsl idman və həmrəylik bayramına çevrildi, maraqlı və parlaq qələbələrlə yadda qaldı. Bu mötəbər yarışda 10 qızıl, 7 gümüş və 6 bürünc medal qazanan Azərbaycan yığma komandası 48 ölkə arasında dördüncü oldu.

AZƏRTAC xəbər verir ki, festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli bağlanış mərasimində Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov, Avropa Olimpiya Komitələrinin (AOK) vitse-prezidenti Nils Nayqaard, növbəti festivala evsahibliyi edəcək Slovakiyanın Banska Bıstritsa bölgəsinin meri Yan Nosko, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak ediblər.

Bağlanış mərasiminin iştirakçıları arasında Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva və Azərbaycan Milli Olimpiya Komitəsinin baş katibinin müavini Azər Əliyev də olublar.

Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin (BOK) himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi var. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Olimpiya bayrağı altında keçirilən festival Olimpiya ənənələri ilə zəngindir.

"Zirvələrə hazırıq" devizi altında keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının yarışları paytaxtın 12 idman obyektində yeddi gün davam edib. Festivalda 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında 135 dəst medal uğrunda mübarizə apardı.

Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil ediblər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunub. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərib.

"Baku Crystal Hall"a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli bağlanış mərasiminin unudulmaz anlarının şahidi oldular.

Bağlanış mərasimi Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başladı.

Azərbaycan Respublikasının Dövlət bayrağının, eləcə də AOK-un və BOK-un bayraqlarının dalğalandığı arenada bayraqlar paradına start verildi. İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın, sonra digər ölkələrin bayraqları əlifba sırası ilə arenaya gətirildi. Bayraq paradı ev sahibi Azərbaycanın bayrağının gətirilməsi ilə başa çatdı.

Daha sonra XV Avropa Gənclər Olimpiya Festivalının ən maraqlı anlarını əks etdirən film nümayiş etdirildi.

Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və AOK-un vitse-prezidenti Nils Nayqaard səhnəyə gəldilər.

**"EYOF Bakı 2019"un Təşkilat Komitəsinin sədri Yaqub EYYUBOV çıxış edərək dedi:**

- Hörmətli Beynəlxalq və milli federasiyaların rəsmiləri.

Əziz gənc idmançılar.

Xanımlar və cənablar.

Yeddi gün ərzində yüksək əhvali-ruhiyyə, gərgin mübarizə və dostluq şəraitində keçən XV Avropa Gənclər Olimpiya Festivalı bu gün başa çatır. Festivalın bağlanış mərasimindəki çıxışımda səmimi hisslərimi sizinlə bölüşmək istəyirəm. Ölkəmlə, ölkəmin rəhbərliyi, insanları ilə və bu yarışlarda fəal iştirak edən bütün gənc dostlar, sizinlə qürur duyuram. Mən qürur duyuram ki, biz bu festivalı ənənəvi olaraq yüksək səviyyədə təşkil etməklə Azərbaycanın idman ölkəsi olduğunu bir daha nümayiş etdirdik. Biz idmanı sevirik, çünki o, dünyada dostluq, sülh və sağlam həyat sürmək üçün ən təsirli və önəmli vasitədir.

Təşkilat Komitəsi və bütün Azərbaycan idmançıları adından festivala və ölkəmizdə idmanın inkişafına böyük dəstək verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildirirəm.

Əziz gənclər, siz 10 idman növü üzrə 900-dən çox medal uğrunda mübarizə aparmaqla yanaşı, ən önəmlisi, Olimpiya hərəkatı ideyalarına sadiq qalaraq birlik və dostluq nümayiş etdirdiniz. Ümumi nəticədə XV Avropa Gənclər Olimpiya Festivalının qalibi olmuş Rusiya komandasını, müvafiq olaraq ikinci və üçüncü yerləri tutmuş Böyük Britaniya və Türkiyə idmançılarını ürəkdən təbrik edirəm.






Xüsusi qeyd etmək istəyirəm ki, Azərbaycan idmançıları Gənclərin Avropa Olimpiya festivallarında iştirak tarixlərinin ən böyük uğurunu məhz Bakı şəhərində əldə etdilər. Onlar ümumi komanda hesabında dördüncü yerə çıxdılar, 10-u qızıl, 7-si gümüş və 6-sı bürünc olmaqla, 23 medal qazandılar. Bu nailiyyət münasibətilə Azərbaycan xalqını, idmançılarımızı və onların məşqçilərini səmimi-qəlbdən təbrik edirəm.

Təbii ki, nəticələrindən asılı olmayaraq, festivalda iştirak etmiş bütün komandaları təbrik edirəm - bu cür yarışlarda iştirakın özü də böyük bir qələbədir.

Ümidvaram ki, əziz idmançılar, Azərbaycanda keçirdiyiniz bir həftə sizlərin həyatında unudulmaz izlər buraxdı və bu duyğuları Azərbaycandan gedərkən özünüzlə aparacaq və Bakıda - gözəl paytaxtımızda keçirdiyiniz günləri bütün ömrünüz boyu xoş xatirələrlə yada salacaqsınız.

Mən Avropa Gənclər Olimpiya Festivalında iştirak etmiş bütün məşqçi və hakimlərə, yardımçı heyət nümayəndələrinə, idman arenalarına gələn azarkeşlərə də təşəkkür edirəm.

Canlı izlədiyimiz festival gənclərin böyük bir qismi üçün ilk mühüm sınaq oldu. Əminəm ki, sıralarınızdan gələcəyin Olimpiya, dünya və Avropa çempionları yetişəcək və biz də böyük fəxrlə xatırlayacağıq ki, bu nailiyyətlərin əsası məhz Bakı şəhərində qoyulub.

XV Avropa Gənclər Olimpiya Festivalı başa çatdı. 2021-ci ildə növbəti - XVI Festival Slovakiyanın Banska Bistritsa şəhərində keçiriləcək. Əminik ki, bu yarışlar da yüksək səviyyədə təşkil olunacaq.

Əziz dostlar, əziz gənclər, Azərbaycanda keçiriləcək gələcək idman yarışlarında yenidən görüşmək ümidi ilə sağollaşır və bir daha hər birinizə Bakıdakı festivalın iştirakçısı olduğunuza görə səmimi-qəlbdən "Çox sağ olun!" deyirik.

❖ ❖ ❖

**Sonra AOK-un vitse-prezidenti Nils NAYQAARD çıxış edərək dedi:**

- Hörmətli Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini cənab Yaqub Eyyubov.

Əziz idmançılar.

Əziz dostlar və Avropanın Olimpiya hərəkatının qonaqları.

İcazə verin, Avropanın bütün Milli Olimpiya Komitələrinin ən səmimi salamlarını çatdırım.

Burada, Bakıda biz XV Yay Avropa Gənclər Olimpiya Festivalının maraqlı həftəsini keçirdik.

Bu, Avropa idmanının, qitəmizin ən yaxşı gənc idmançılarının əsl bayramı oldu. Burada yarışan atletləri seyr etdikdən sonra əminliklə demək olar ki, Avropanın idman aləmində aparıcı mövqeyi yaxın zamanlarda dəyişməz olaraq qalacaq.

Bütün idmançıları təbrik edirik. Ümidvaram ki, burada əldə etdiyiniz təcrübə sizi gələcəkdə həm idman, həm də digər sahələrdə daha böyük zirvələri fəth etməyə ilhamlandıracaq.

Siz dostluq, kamillik və hörmət kimi Olimpiya dəyərlərini təcəssüm etdirdiniz və biz bütün həftə izlədiyimiz çıxışlarınızdan fərəhləndik.

Azərbaycanlı dostlarımıza və təşkilatçılara minnətdarıq. Çünki onlar bir daha bütün dünyaya nümayiş etdirdilər ki, çox idman növlü mükəmməl yarışları təşkil etməyə qadirdirlər.

Öz təbəssümü və nəzakətli davranışı ilə festivalın ərsəyə gəlməsində yardımçı olmuş üç min beş yüz könüllüyə xüsusi minnətdarlığımızı bildiririk.

Avropa Gənclər Olimpiya Festivalı gənclərin bayramıdır və biz şadıq ki, həmin Oyunlarda bu qədər sayda gənc iştirak etdi.

Yerli təşkilatçılar gənclərlə çox peşəkar iş apardılar, o cümlədən Bakının 49 məktəbi ilə onların Avropadakı həmkarları arasında qardaşlaşma tellərini mümkün edən Olimpiya Mədəniyyəti və Təhsili Proqramını həyata keçirdilər.

Tələbələr yerli mədəniyyət, tarix, incəsənət və idmanla bağlı fikirlərini bir-biri ilə bölüşdülər, həmçinin Olimpiya dəyərləri və prinsipləri ilə tanış oldular.

Onların keçdikləri təlimlər və gördükləri işlər Atletlər kəndində Olimpiya Mədəniyyəti və İdmanı Pavilyonunda nümayiş olundu. Gənc idmançılar, komanda üzvləri və digər qonaqlar orada bütün iştirakçı Avropa ölkələri ilə tanış oldular və Olimpiya ruhunu duydular.

Avropa gənclərini bir araya gətirən bu Oyunlardan əldə edilmiş nəticələr daim yaddaşlarda qalacaq.

İdman bir daha sübut etdi ki, o, fərqli mənşəyə, inanclara malik olan insanları dinc yarış şəraitində birləşdirməkdə böyük gücə malikdir.

Hər zaman ən xoş xatirələrlə yada salacağımız Avropa idmanının və gənclərin unudulmaz bir həftəsinə görə sağ ol Bakı, sağ ol Azərbaycan!

İndi isə, mən XV Avropa Gənclər Olimpiya Festivalını bağlı elan edirəm.

❖ ❖ ❖

Daha sonra Olimpiya himninin sədaları altında AOK-un və BOK-un bayraqları endirildi. Festivalın çempionu olan Azərbaycan idmançıları - Xasay Həsənli, Həsrət Cəfərov, Elmir Əliyev, Fərid Sadıxlı, Qurban Qurbanov və Turan Bayramov BOK-un bayrağını təntənəli şəkildə səhnədən çıxardılar.

AOK-un bayrağı isə Təşkilat Komitəsinin sədri Yaqub Eyyubova təqdim olundu. Yaqub Eyyubov bayrağı rəmzi olaraq bir neçə dəfə dalğalandırdıqdan sonra AOK-un vitse-prezidenti Nils Nayqaarda təqdim etdi. AOK-un vitse-prezidenti isə bayrağı növbəti - XVI Avropa Gənclər Olimpiya Festivalına evsahibliyi edəcək Slovakiyanın Banska Bistritsa bölgəsinin meri Yan Noskoya verdi.

Slovakiyanın Dövlət himninin sədaları altında bu ölkənin bayrağı arenada qaldırıldı.

**Slovakiyanın Banska Bistritsa bölgəsinin meri Yan NOSKO mərasimdə çıxış edərək dedi:**

- Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini Yaqub Eyyubov.

Avropa Olimpiya Komitələrinin vitse-prezidenti Nils Nayqaard.

Əziz idmançılar, əziz qonaqlar.

Yaxşı bir ideyam var. Mən sizi öz cazibəsi ilə seçilən bir məkana dəvət etmək istəyirəm. Baxmayaraq, o, kiçik bir yerdir, lakin orada böyük potensial gizlənir. Mən sizi elə bir ölkəyə dəvət etmək istəyirəm ki, oranın əhalisi Nyu-York şəhərinin əhalisindən azdır. Lakin həmin ölkə pop-artın banisinin, paraşütü və ya uçan maşını ixtira edənlərin vətənidir. Peter Saqan və ya Zdeno Kara kimi idmançılar orada dünyaya göz açıblar. Yaxşı bir ideyam var. Mən sizi öz adımdan məhəbbəti ehtiva edən ölkəyə dəvət edirəm. Bir halda ki, məhəbbət ürəkdə doğulursa, sizi bu ölkənin qəlbinə dəvət edirəm. Bilirsiniz niyə? Çünki şəhər Slovakiyanın tam mərkəzində yerləşir və o, hər yerə yaxındır. Çünki o, Olimpiya çempionlarının və dünya şöhrətli idmançıların şəhəridir.

Futbolçu Marek Hamşik, biatlonist Anastasiya Kuzmina və idman yerişi ustası Matej Tot kimi idman ulduzları Banska Bistritsa şəhərinin yetirmələridir. Sizin hamınızı, gələcək idman ulduzlarını 2021-ci ildə Banska Bistritsaya dəvət edirəm. Əminəm ki, siz məmnun qalacaqsınız. Bizim gözəl şəhərimiz dağların qoynunda yerləşir və bütün slovak şəhərləri ilə müqayisədə ən gözəl meydana və şəhər mərkəzinə malikdir.

2021-ci ildə Avropanın mərkəzinə gəlin. Hamımız sizi Slovakiyada, Banska Bistritsada səbirsizliklə gözləyirik. Biz 2017-ci ildə Avropanın idman şəhəri adını fərəh hissi ilə daşıdıq və 2021-ci ildə biz Avropa Gənclər Olimpiya Festivalının məşəlini fərəhlə daşıyacağıq. Hamınız dəvətlisiniz! Çox sağ olun.

❖ ❖ ❖

Bağlanış mərasimində XVI festivala evsahibliyi edəcək Slovakiya haqqında film nümayiş olundu.

Daha sonra yeddigünlük idman bayramının başa çatmasının rəmzi olaraq festivalın məşəli gimnastların ifasında maraqlı kompozisiyanın müşayiəti ilə söndürüldü.

Məşəlin söndürülməsindən sonra bağlanış mərasimi maraqlı konsert proqramı ilə davam etdi.

Qeyd edək ki, festivalda 23 medal - 10 qızıl, 7 gümüş və 6 bürünc qazanan Azərbaycan millisi komanda hesabında dördüncü pillədə qərarlaşıb. Medallardan 16-sını güləşçilərimiz qazanıblar. Pəhləvanlarımız 8 qızıl, 5 gümüş və 3 bürünc medala sahib olublar. Medalların sayına görə komandamızda ikinci yerdə cüdoçular qərarlaşıblar. Cüdoçular ölkəmizin aktivinə 2 qızıl, 1 gümüş və 3 bürünc medal yazdırıblar. Komandamız idman gimnastikası yarışında isə 1 gümüş medala sahib olub.

"EYOF Bakı 2019" XV Avropa Gənclər Olimpiya Festivalında yeddigünlük idman mübarizəsinin yekununda 38 ölkənin təmsilçiləri medal qazanıblar. Siyahıya aktivində 66 (28 qızıl, 17 gümüş və 21 bürünc) medal olan Rusiya komandası başçılıq edir. Böyük Britaniya idmançıları 25 medalla (11 qızıl, 12 gümüş, 2 bürünc) ikinci, Türkiyə komandası isə 27 medalla (11 qızıl, 6 gümüş və 10 bürünc) üçüncü sırada qərarlaşıblar. Sonrakı yerləri müvafiq ardıcıllıqla İtaliya, Ukrayna, İspaniya, Fransa, Polşa, Belarus, Rumıniya, Almaniya, Xorvatiya, İsveç, Estoniya, Hollandiya, Finlandiya, Çexiya, İrlandiya, Norveç, Gürcüstan, Danimarka, Bolqarıstan, Kipr, İsrail, Kosovo, Avstriya, Macarıstan, Belçika, İsveçrə, Moldova, Yunanıstan, Serbiya, Portuqaliya, Litva, Latviya, Slovakiya və Sloveniya idmançıları tutublar.

Bununla da Azərbaycan daha bir mötəbər turnirə yüksək səviyyədə evsahibliyi etdi. Bu mötəbər idman turnirinin uğurlu təşkilini təmin edən mühüm amillərdən biri son illər Azərbaycanın beynəlxalq idman tədbirlərinin keçirilməsində qazandığı zəngin təcrübədir. 2015-ci ildə tarixdə ilk Avropa Oyunları, 2016-cı ildə 42-ci Ümumdünya Şahmat Olimpiadası, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunları, son bir neçə ildə "Formula-1" Qran-Prisi, bu ilin mayında UEFA Avropa Liqasının final qarşılaşması kimi mötəbər yarışlara uğurla evsahibliyi edən Azərbaycan XV Avropa Gənclər Olimpiya Festivalını da müvəffəqiyyətlə təşkil etməklə bir daha dünyanın diqqət mərkəzinə çevrildi.

# "Jara-2019" Beynəlxalq Musiqi Festivalının üçüncü günündə də iştirakçıların qırmızı xalının üzərindən keçidi olub

Bakıda, "Sea Breeze Resort" istirahət mərkəzində təşkil olunan "Jara-2019" Beynəlxalq Musiqi Festivalının üçüncü günü - iyulun 27-də iştirakçılar qırmızı xalı üzərindən keçiblər.





AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva festivalın fəxri qonaqları arasında olub.

Aparıcının "Bu gün burada 1990-cı illərin hitləri səslənəcək. Sizin sevimli hitiniz varmı" sualını cavablandıran Leyla Əliyeva dedi:

- "İvanuşki İnternəşnl" qrupu mənim çox xoşuma gəlirdi. Elə indi də onları dinləməyi sevirəm.

*- Bəs bu qrupun hansı mahnıları xoşunuza gəlir?*

- Musiqinin, ümumiyyətlə, zamanı olmur. "Koleçko, koleçko, koltso" mahnısı kimi. Ən sevimli mahnı heç vaxt köhnəlmir. Bu səbəbdən çox yaxşı haldır ki, bu gün bunu etdiniz.

*- Leyla xanım, artıq "Jara" festivalının iki günü arxada qalıb. Hansı hisslər, hansı təəssüratlar var? İldən-ilə bu festivalda sizin üçün dəyişən nədir?*

- İldən-ilə, ümumiyyətlə, dünya yaxşılığa doğru dəyişir. Çünki getdikcə daha çox insan başa düşür ki, biz sevgi və mərhəmət üçün yaşayırıq. Mən xoşbəxtəm ki, Azərbaycan dünyada belə bir yerə çevrilib. Arzu edirəm ki, bütün dünya belə olsun. Bütün artistlərə təşəkkürümü bildirirəm.

Xalq artisti Emin Ağalarov ötən əsrin 90-cı illərinin bu gün ifa ediləcək hitlərinin tamaşaçılar tərəfindən böyük maraqla qarşılanacağına əminliyini bildirib.

Qeyd edək ki, festivalın üçüncü günü Emin Ağalarov, Qriqori Leps, Vladimir Kuzmin, Natalya Podolskaya, Aleksandr Buynov, Aleksandr Şoua, Vladimir Presnyakov, Alyona Apina, Aleksandr Malinin, Layma Vaykule, Seryoqa, Aleksandr İvanov, Anna Sedokova, İrina Dubtsova, Lyubov Uspenskaya, Brendon Stoun, Jasmin, Anita Tsoy, İntars Busulis, İrina Nelson, Nataşa Korolyova, Mitya Fomin, İqor Nikolaev, Denis Klyaver, Valeriya, Aleksey Çumakov, Yuliya Kovalçuk, Tomas Neverqreen, Stas Pyexa, Dilarə Kazımova, Maşa Veber, Slava, "MBAND", "Ruki vverx", "Nana", "Zemlyane", "Queens", "Rondo", "Hi-Fi" qrupları və başqaları qırmızı xalı üzərindən keçiblər.

Xalıdan keçən məşhur ifaçılar "Jara-2019"la bağlı təəssüratlarını bölüşüb, festivalda ifaların əsl bayram əhvali-ruhiyyəsi yaratdığını qeyd ediblər. Onlar, həmçinin festivala böyük həvəslə hazırlaşmalarından söz açıblar.

Qeyd edək ki, hər dəfə rəngarəng ifalarla tamaşaçıları heyrətləndirən festivala ildən-ilə maraq artmaqdadır. Festival iştirakçıları Bakıda keçirilən bu musiqi bayramında böyük həvəslə iştirak etdiklərini söyləyirlər.

# Heydər Əliyev Fondunun dəstəyi ilə Bona Dea Beynəlxalq Hospitalında müalicə olunan uşaqlarla görüş





Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva iyulun 27-də paytaxtdakı Bona Dea Beynəlxalq Hospitalında fondun dəstəyi ilə müalicə olunan uşaqlarla görüşüb.




AZƏRTAC xəbər verir ki, Bona Dea Beynəlxalq Hospitalı istər tibbi heyətinə, istərsə də maddi-texniki bazasına görə dünyada müasir standartlara cavab verən müalicə ocaqlarından biridir. Heydər Əliyev Fondunun dəstəyi ilə burada bu ilin may ayında 50, iyun ayında isə 42 uşaq müalicə alıb. Müalicə olunanlar əsasən serebral iflic və autizm xəstəliklərindən əziyyət çəkən uşaqlardır. Müalicə alan uşaqlardan 5-i əməliyyat olunub. Əməliyyatdan sonra uşaqlara müvafiq müalicə kursu təyin edilib və onlar hazırda reabilitasiya kursu alırlar. Müalicə alanlar arasında anadangəlmə eşitmə qüsurlu uşaq da olub. Aparılan müalicə nəticəsində onun eşitmə qabiliyyəti bərpa edilib.

Burada müalicə olunan uşaqlara Heydər Əliyev Fondu tərəfindən hədiyyələr də təqdim edildi.

Gələcəyimiz olan uşaqların sağlamlığının təmini Heydər Əliyev Fondunun fəaliyyətində əsas prioritetlərdən birini təşkil edir. Fondun bu istiqamətdə həyata keçirdiyi layihələr əhəmiyyəti ilə seçilir və davamlı xarakter alıb.

# BVF-nin dünya üzrə bədbin proqnozu və Azərbaycanın nikbin perspektivləri

ABŞ-la Çin arasındakı ticarət mübahisələrinin dərinləşməsi bütünlükdə dünya iqtisadiyyatına mənfi təsir edir.




Beynəlxalq Valyuta Fondu (BVF) sonuncu iyul hesabatında 2019-2020-ci illərdə dünya iqtisadiyyatının inkişaf tempinin 3,2 faizdən 3,5 faizədək düşəcəyini proqnozlaşdırıb. BVF-nin bugünədək bütünlükdə dünya üzrə ÜDM haqqında açıqladığı proqnozların zəifləyən inflyasiya tempi əsasında analizi dünya iqtisadiyyatının fəallığının gözlənildiyindən aşağı olduğunu üzə çıxarır.

Eyni zamanda BVF proqnozunda Rusiya iqtisadiyyatının artım tempini 2019-cu il üçün gözlənilən 1,6 faizdən 1,2 faizə endirmiş, 2020-ci ildə isə bu ölkədə ÜDM-in 1,9 faiz artacağını proqnozlaşdırmışdır. BVF-nin yaydığı iyul pres-relizində deyilir ki, "indiyədək dərc olunan ÜDM göstəriciləri 2019-cu ildə iqtisadi artımın gözlənildiyindən aşağı olduğunu təsdiq edir".

Fond MDB ölkələri üçün builki iqtisadi artımı 1,9 faiz, gələn il üçün isə 2,4 faiz həcmində proqnozlaşdırır. Rusiya istisna olmaqla digər MDB ölkələrində ÜDM bu il və gələn il müvafiq olaraq 3,5 və 3,7 faiz həcmində proqnozlaşdırılır. Cin iqtisadiyyatında artım bu iki ildə 6,2 və 6 faiz olacaq.

2019-cu ildə artımın proqnozu ABŞ-da 2,6, Avrozonaya daxil olan ölkələrdə 1,3 faizdir. Almaniya üçün proqnoz bir qədər aşağı salınsa da, Fransa və İtaliya üçün bu rəqəmlər sabit saxlanılmış, İspaniya üçün isə artırılmışdır. Yaponiya iqtisadiyyatında artımın proqnozu 2019 və 2020-ci illərdə 0,9 faizdən 0,4 faizədək azaldılmışdır. Böyük Britaniyada ÜDM-nin artımı 2019-cu ildə 1,3, 2020-ci ildə isə 1,4 faiz proqnozlaşdırılır.

ABŞ-ın Çinə, Rusiyaya və İrana tətbiq edə biləcəyi sanksiyaların bədbin perspektivləri bütünlükdə texnoloji məhsulların qlobal idxal və ixracını təhlükə altına ataraq müəmmalı münasibətlərin təməlini qoyub. Eyni zamanda getdikcə güclənən geopolitik silkələnmələr enerji daşıyıcılarının qiymətlərindəki sabitliyi pozub. Bütün ölkələrdə investisiyaların və uzunmüddətli istehlak mallarına olan tələbatın həcmi azalıb. Əsas hissəsini maşınqayırma və istehlak məhsulları təşkil edən dünya ticarətinin dinamikası süstdür. 2020-ci ildə proqnozlaşdırılan artım tempi isə dayanıqlı deyil.

Ticarət və texnologiya bazarlarında gərginliyin artması inkişafa mənfi təsir göstərərək bütünlükdə investisiya axınlarının azalmasına və dünya iqtisadiyyatının inkişafında risklərin meydana gəlməsinə səbəb ola bilər.

BVF ticarətdə və texnologiyalarda gərginliklərin azaldılmasına, ticarət razılaşmalarındakı qeyri-müəyyənliyin aradan götürülməsinə çağırır və təkliflərini verir. Fond həmçinin dünya mərkəzi banklarını və tənzimləyiciləri xəbərdar edir ki, ticarət çəkişmələri ilə bağlı qlobal iqtisadiyyatda baş verən ciddi geriləmələrin qarşısını almaq üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsinə hazır olmaq lazımdır.

BVF-nin həyəcan təbili çaldığı belə bir vaxtda Azərbaycan üzrə bu fondun missiya rəhbəri Nataliya Tamirisanın ölkəmizin xarici dövlətlərin qarşısında öhdəliklərinin azaldılması ilə bağlı niyyətləri barədə hesabatı nikbindir. O bildirib ki, fond Bakı ilə maliyyə vəsaitlərinin alınması üzrə danışıqlar aparmır və ümumiyyətlə, 2005-ci ildən üzü bəri Azərbaycana heç bir kredit ayırmamışdır. Bakı heç vaxt maliyyə yardımı üçün müraciət etməmiş və buna ehtiyac duymamışdır.

BVF missiyasının bu ölkəyə səfərinin əsas məqsədi fondun nizamnaməsinin IV maddəsinə uyğun ənənəvi məsləhətləşmələrin keçirilməsi olmuşdur. Missiya bu maddə əsasında ölkədə maliyyə vəziyyətini və iqtisadi inkişafı dəyərləndirir və məruzə hazırlayır. Ölkə rəhbərliyi, işgüzar dairələr və digər maraqlı tərəflərlə görüşlər keçirir və bu görüşlərdə iqtisadi xülasələri, maliyyə sektorundakı problemləri və struktur islahatlarını müzakirə edir. Yəni BFV Bakıya ötən əsrin sonunda və yeni əsrin əvvəlində olduğu kimi nəzarət etmir, hər hansı tələbləri irəli sürmür. Sadəcə bərabərhüquqlu tərəflərin bərabər müzakirələri aparılır. BVF-nin 2019-cu il üçün Azərbaycanın ÜDM istehsalındakı artım tempi ilə bağlı verdiyi proqnoz 2,7, sonrakı illər üçün isə 2,1-2,5 faizdir.

Dünya iqtisadiyyatında mövcud təhlükələrlə bağlı həyəcan təbili çalındığı bir vaxtda Azərbaycanın belə qiymətləndirilməsi, əlbəttə ki, müsbət və ürəkaçan haldır.

***Bahadur İMANQULİYEV, "Azərbaycan"***

# Prezident İlham Əliyevin tapşırığına əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul ediblər

Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazov iyulun 26-27-də Gəncə Şəhər Baş Polis İdarəsində daxili işlər orqanlarının fəaliyyətinə və səlahiyyətinə aid məsələlərlə əlaqədar növbəti qəbul keçirib.

Nazir Baş Polis İdarəsində Gəncə də daxil olmaqla respublikanın qərb bölgəsinin 10 şəhər və rayonundan, eyni zamanda, həmin zonada məskunlaşmış qaçqın və məcburi köçkünlərdən qəbul üçün müraciət edən 49 vətəndaş ilə görüşüb.

General-polkovnik Vilayət Eyvazov onların polisin fəaliyyəti ilə bağlı müraciətlərini şəxsən dinləyib, problemlərinin operativ şəkildə, mövcud qanunvericiliyə uyğun həlli üçün nazirliyin aidiyyəti baş idarə və xidmət rəislərinə konkret tapşırıqlar verib. Müraciətlərin böyük əksəriyyəti elə yerindəcə həllini tapıb.

Tədbirdə iştirak edən şəxslər göstərilən diqqət və qayğıya, bölgələrdə mütəmadi olaraq vətəndaşların qəbuluna, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən müraciətlərinə operativ şəkildə münasibətə və həssas yanaşılmasına görə Azərbaycan Prezidentinə minnətdarlıq edib, dövlət başçısının ölkəmizin tərəqqisinə, iqtisadi dirçəlişinə, beynəlxalq imicinin daha da yüksəldilməsinə yönəlmiş siyasətini daim dəstəkləyəcəklərini bildiriblər.

* * *

Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov Ağdam rayonunun Quzanlı qəsəbəsində Ağdam rayonunun sakinlərinin, həmçinin bu rayonda məskunlaşmış məcburi köçkünlərin qəbulunu keçirib.

AZƏRTAC xəbər verir ki, Fövqəladə Hallar naziri tərəfindən qəbul edilən vətəndaşların müraciətlərinin bir çoxu yerindəcə öz həllini tapıb, bir sıra məsələlərlə bağlı qanunvericiliyə uyğun dərhal zəruri tədbirlərin görülməsi barədə aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

Bundan əlavə, Fövqəladə Hallar nazirinin birinci müavini Rəfail Mirzəyev Ağcabədi şəhərində Ağcabədi rayonunun, Fövqəladə Hallar nazirinin müavini Etibar Mirzəyev isə Beyləqan şəhərində Beyləqan rayonunun sakinləri və həmin rayonlarda məskunlaşmış məcburi köçkünləri qəbul edib.

# Qəzaya uğramış hərbi təyyarənin axtarışı davam edir

Hərbi təyyarənin qəzaya uğraması ilə əlaqədar yaradılan əməliyyat qərargahında Müdafiə Nazirliyinin, aidiyyəti dövlət qurumlarının və xidmətlərin nümayəndələrinin iştirakı ilə təxirəsalınmaz tədbirlərin həyata keçirilməsi davam etdirilir.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

Xatırladaq ki, iyulun 24-də saat 22.00 radələrində plana uyğun olaraq, gecə vaxtı təlim-məşq uçuşları keçirən Hərbi Hava Qüvvələrinin MiQ-29 təyyarəsi ilə qəflətən rabitə əlaqəsi kəsilib və aviasiya vasitəsi radarlardan itib. Hadisə ilə əlaqədar Hərbi Prokurorluqda Cinayət Məcəlləsinin 342.2-ci maddəsi ilə cinayət işi başlanılıb.

# Cəlilabadda süfrə üzümü yığımı başlanıb




*Əvvəli 1-ci səh.*

Onun 10 hektarı "Kordinal", 21 hektarı "Soltanı" sortudur. "Kordinal" sortu daha tez yetişdiyi üçün bir neçə gündür ki, onun yığımına başlanılmışdır. Hazırda burada 22 nəfər işləyir. Qızlar, gəlinlər xüsusi qayçı ilə yetişmiş salxımları dərərək qablara yığırlar. Oğlanlar dolan qabları sahənin kənarına çıxarırlar. Orada salxımlar çeşidlənərək taxta yeşiklərə düzülüb qapanda çəkilir. Bakının "Meyvəli bazar"ından maşınlarla gələn alıcılar çəkilən üzüm yeşiklərini götürüb yola düşürlər.

Sahibkar M.Mustafayevin dediklərindən məlum oldu ki, ilk gün 5 ton məhsul yığılıb. Bu rəqəm gündən-günə artır. Südabə və Naibə Əmirova bacıları, Natəvan Qurbanova, Nərgiz Cəfərova, məhsulu çeşidləyənlərdən Züleyxa Əliyeva, Zülfiyyə Qurbanova, Əli Əbdülhəsənov, Məcid Bayramov və başqaları üzüm yığımında daha çox fərqlənirlər.

Bir neçə gündən sonra "Soltanı" süfrə üzümünün yığımına da başlanacaq.

***Seyran CAVADOV, "Azərbaycan"***

# Şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə daha 50 mənzil verilib



İyulun 27-də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Abşeron rayonunun Saray qəsəbəsindəki yeni yaşayış binalarından alınmış 50 mənzili şəhid ailələri və Qarabağ müharibəsi əlillərinə təqdim edib.

AZƏRTAC xəbər verir ki, mənzillərin təqdimetmə mərasimində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov çıxış edərək, Prezident İlham Əliyevin xüsusi qayğısı nəticəsində şəhid ailələri və müharibə əlillərinin mənzillə təminatı sahəsində mühüm addımların atıldığını bildirib. Qeyd edib ki, bu kateqoriyalardan olan şəxslərə 2018-ci ildə nəzərdə tutulduğundan 3 dəfədən çox, yəni 626 mənzil təqdim edilib. Bu il isə azı 800 mənzilin verilməsi planlaşdırılıb. "Bu gün təqdim edilən mənzillər də daxil olmaqla, artıq 110 mənzil sahiblərinə verilib" deyən nazir müavini bununla da indiyədək nazirlik tərəfindən şəhid ailələrinə və müharibə əlillərinə 6764 mənzil təqdim edildiyini vurğulayıb.

Anar Kərimov müharibə əlillərinin avtomobillə təminatı proqramının da gücləndirildiyini deyib. Bildirilib ki, ötən il həmin vətəndaşlara 265 avtomobil verilib, bu il isə 600-ə yaxın avtomobil verilməsi nəzərdə tutulub. Artıq 200 avtomobil təqdim olunub. Beləliklə, indiyədək 6350-dək avtomobil müharibə əlillərinin istifadəsinə verilib.

Nazir müavini diqqətə çatdırıb ki, cari ildə dövlət başçısının təqdim etdiyi iki sosial islahat paketi 4,2 milyon vətəndaşın rifahına ciddi dəstək olub. Onların sırasında şəhid ailələri və müharibə əlilləri də var. Belə ki, həmin vətəndaşlara yönələn təqaüd və müavinətlərin, pensiyaların da əhəmiyyətli dərəcədə artırılması təmin edilib.

Tədbirdə çıxış edən ictimai təşkilatların rəhbərləri Qarabağ müharibəsi əlillərinin, şəhid ailələrinin rifahı naminə görülən işlərin, eyni zamanda, onların mənzillə təmin edilmələrinin ölkəmizdə aparılan güclü sosial siyasətin daha bir təzahürü olduğunu diqqətə çatdırıblar.

Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin üzvləri Prezident İlham Əliyevin daim həssas qruplara, o cümlədən şəhid ailələrinə, müharibə əlillərinə xüsusi qayğı göstərdiyini məmnunluq hissi ilə vurğulayıblar. Onlar sosial təminatlarının gücləndirilməsi üçün atılan mühüm addımlara, yeni mənzillərlə təmin olunduqlarına görə dövlət başçısına minnətdarlıqlarını ifadə ediblər.

# XV Avropa Gənclər Yay Olimpiya Festivalı

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL





# Azərbaycandan daha bir nümunə
# 10 qızıl, 7 gümüş, 6 bürünc

## “Bugünkü oyunda öz yetirmələrimin əzmli qələbəsi ilə fəxr edirəm”

Bunu yeniyetmələr arasında basketbol üzrə Azərbaycan yığma komandasının baş məşqçisi Samit Nuruzadə söyləyib.

Yığmamızın məşqçisi əlavə edib: “Dünən biz Yunanıstan komandası ilə matçda xoşagəlməz məğlubiyyətə uğradıq. Dünənki oyunu təhlil etdik və bu gün Xorvatiya yığmasına qalib gələ bildik - 64:51. Komandamızla, məşqçi heyəti ilə, bizi dəstəkləyən könüllülərlə, xüsusən hətta hesab 44:31 Xorvatiya komandasının xeyrinə olduqda bizə dəstək verməyə davam edən azarkeşlərlə fəxr edirəm”.

## Türkiyənin voleybolçu qızları festivalın bürünc medallarına sahib olublar



İyulun 27-də Türkiyənin voleybolçu qızları XV Avropa Gənclər Olimpiya Festivalının bürünc medallarına sahib olublar.

Türkiyə yığması festivalın sonuncu günündə üçüncü yer uğrunda görüşdə İtaliya milli komandası isə üz-üzə gəlib. Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində keçirilən qarşılaşmada türkiyəli voleybolçular 3:0 (25:23, 25:21, 25:23) hesabı ilə qələbə qazanaraq fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

Oyunu azərbaycanlı hakim Zaur Hacıyev idarə edib.

## İtaliyalı oğlanlar voleybolda lider oldular

Oğlan voleybolçuların yarışında İtaliya millisi çempion olub. Final görüşü İtaliya və Belçika komandaları arasında oynanılıb. İtaliyalı voleybolçular hər üç setdə qələbə qazanaraq festivalın qızıl medallarına yiyələniblər - 25:21, 25:21 və 25:19.

Bu görüşlə eyni vaxtda 5-6-cı yerlər uğrunda Azərbaycan Voleybol Mərkəzində təşkil olunan digər matçda Bolqarıstanın oğlanlardan ibarət voleybolçuları Çexiyanı sınağa çəkiblər. Oyunda 3:0 (25:22, 25:21, 25:16) hesabı ilə qalib gələn Çexiya komandası yarışları 5-ci pillədə başa vurub.

## Kipr millisinə yeganə qızıl medalı Qriqoris qazandırdı



XV Avropa Gənclər Yay Olimpiya Festivalının oğlanlar arasında üç təkanla tullanma yarışında kiprli Qriqoris Nikolaou (15,45 m) qızıl medal qazanıb. Rusiya təmsilçisi Vladislav Aleksandrin (15,38 m) ikinci, fransalı Simon Qore (15,33 m) isə üçüncü pillədə qərarlaşıblar.

Yarışların sonuncu günündə qızlar arasında hündürlüyə tullanma növündə Rusiya atleti Adelina Qalikova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. İsveçrə təmsilçisi Marithe Enqondo gümüş, kiprli Stiliana İoannidou isə bürünc medalla kifayətlənməli olublar.

## Azad RƏHİMOV: “Azərbaycan Festivalı yüksək səviyyədə keçirdi”




Bakı -2019 XV Avropa Gənclər Yay Olimpiya Festivalının Əməliyyat Komitəsi yarışın yekunları ilə bağlı mətbuat konfransı keçirib.

Tədbirdə Azərbaycan Gənclər və İdman naziri Azad Rəhimov, Avropa Olimpiya Komitələrinin (AOK) Əlaqələndirmə Komissiyasının sədri Corce Visaçki və AOK-un vitse-prezidenti Nils Nayqard iştirak ediblər.

A.Rəhimov bildirib ki, xarici qonaqların rəylərinə əsasən, Azərbaycan Festivalı yüksək səviyyədə keçirdi. Yarış ərzində biz sadəcə yeniyetmələr deyil, əzmkarlığı, zəhmətləri ilə demək olar ki, Olimpiya çempionlarından heç də geri qalmayan peşəkar idmançılar gördük. Ümid edirəm ki, bu Festival onları gələcəkdə daha böyük nailiyyətlər üçün ruhlandıracaq, həvəsləndirəcək. Bütün qonaqların yarışlardan, ölkəmizdən xoş təəssüratlarla ayrılacağına inanıram. Mən onların hər birinə təhlükəsiz, sağ-salamat geri dönüş arzu edirəm. Çox istərdim ki, onlar gələcəkdə qonaq kimi Bakıya qayıtsınlar”.

Nazir Oyunlara tamaşaçı marağının gözlənildiyindən də çox olduğunu, həndbol, atletika, üzgüçülük yarışlarına gündəlik sessiyalarda nəzərdə tutulan bütün biletlərin satıldığını, güləş, cüdo və gimnastika yarışlarında isə hətta nəzərdə tutulandan əlavə yerlər açmalı olduqlarını deyib.

Media nümayəndələrinin rolunu da xüsusi vurğulayan Azad Rəhimov idman obyektlərində hər gün orta hesabla 110-120 jurnalistin yarışları işıqlandırdığını məmnunluq hissi ilə bildirib.

A. Rəhimovun sözlərinə görə, yarışla paralel olaraq “Olimpiya Mədəniyyəti və Təhsil Proqramı”, “Yeni Liderlərin İdman Liderliyi Proqramı” və “Dopinqdən istifadəyə qarşı monitorinq proqramı” layihələrinin həyata keçirilməsi də mühüm məqamlardandır.

Azərbaycan millisi 48 ölkə arasında 23 medalla 4-cü sırada qərarlaşıb.

A. Rəhimov nəticədən razı qaldıqlarını bildirib: “Belə yarışlarda diqqətimizi əvvəlki yarışlara yönəldirik. Son illər Avropa Gənclər Yay Festivalında az medal qazanırdıq və bu, bizi qane edə bilməzdi. Öz evimizdə bütün idman növlərində təmsil olunmaq imkanımız oldu. Bu da medal sayına təsir etdi. Ona görə də nəticədən razıyıq. Yarışda medal qazanan idmançılara diqqət daha da artırılacaq. Bilirsiniz ki, federasiyalar tək peşəkar idmançılara deyil, gənc və yeniyetmələrə də xüsusi diqqət yetirir”.

Nazir komanda idman növlərində nəticələrin zəif olmasına da toxunub: “Komanda idman növündə uğur qazana bilmədik. Yarışlarda hər növdə Avropanın 7 ən güclü yığması çıxış edirdi və biz 8-ci idik. Onlar arasında Avropa və dünya çempionları var. Basketbol yığmamızın Xorvatiyaya qalib gəlməsi bizi sevindirdi. Güləş, cüdo, üzgüçülük və gimnastika yarışlarında oldum. İş qrafiki bütün yarışlara getməyə imkan vermirdi”.

Mətbuat konfransında iştirak edən Avropa Olimpiya Komitələrinin vitse-prezidenti Nils Nayqard çıxışında Festivalı olduqca yüksək səviyyədə təşkil etdiyinə görə Azərbaycan tərəfinə təşəkkürlərini çatdırıb, Bakı turnirinin gənclərin idman yarışı tarixində özəl yer tutacağını bildirib: “Bütün Avropa Gənclər Festivalları həmişə uğurla keçib. Bakı ilə bağlı onu deyə bilərəm ki, Avropa Oyunlarından qalan binalar çox gözəldir. Həmçinin yarışlarda könüllülərin olması çox yaxşı təcrübədir. Bakı bizim üçün də çox gözəl təcrübə oldu”.

(AOK) Əlaqələndirmə Komissiyasının sədri Corce Visaçki də yüksəksəviyyəli təşkilatçılığa görə təşəkkür edib: “Buradan xoş təəssüratlarla ayrılırıq. Burada olan mütəxəssislər Azərbaycanı idman tədbirlərinin ən yüksək pilləsinə qoydular. Gələcəkdə də burada böyük idman tədbirlərinin keçirilməsinə dəstək verəcəyik”.

## İspaniyalı həndbolçular: “Yenidən Azərbaycanda idman yarışlarında iştirak etmək istərdik”



““EYOF Bakı 2019” karyeramızda yeni səhifə açdı. Rəqib komandalarla qarşılaşmalar bizim müxtəlif ölkələrin idmançıları ilə dostluq münasibətləri qurmağımıza səbəb oldu. Təşkilatçılıq çox yüksək səviyyədə idi. Yenidən Azərbaycanda idman yarışlarında iştirak etmək və Bakıya gəlmək istərdik”.

Bunu həndbol üzrə qadınlardan ibarət İspaniya komandasının kapitanı Raquel More və millinin oyunçusu Julia Nuez söyləyib.

“Burada özümüzü vətənimizdə olduğu kimi hiss edirdik. Azərbaycanlı azarkeşlər bizi xüsusi alqışlarla qarşılayırdılar. Festival müddətində Bakını gəzmək imkanımız oldu və şəhərin gözəlliyi bizi valeh etdi”, - deyə ispaniyalı idmançılar bildiriblər.

## Daniel MERİDA: “Məqsədimə nail oldum, qızıl medalı qazandım”



“XV Avropa Gənclər Yay Olimpiya Festivalına qələbəyə inanaraq gəlmişdim. Məqsədimə nail oldum, qızıl medalı qazandım. “EYOF Bakı 2019” mənim üçün unudulmaz olacaq”.

Bu sözləri tennis üzrə oğlanlar arasında fərdi yarışların qalibi ispaniyalı Daniel Merida deyib.

“Final oyunu gözlədiyimdən asan keçdi. Festivalın digər yarışlarında iştirak edən həmyerlilərim tribunadan məni dəstəkləyirdilər. Bu da məni qələbə qazanmağa ruhlandırırdı. Sevinirəm ki, onların da inamını doğrultdum. Hər bir idmançının ən böyük arzusu beynəlxalq arenalarda Dövlət himnini səsləndirməkdir. Mən bunu bacardım! Azərbaycana bu mötəbər yarışlara yüksək səviyyədə evsahibliyi etdiyinə və idmançılara hər cür şərait yaratdığına görə təşəkkür edirəm”, - deyə çempion tennisçi vurğulayıb.

## Britaniyalı tennisçi qızların fərdi yarışının qalibi olub



Dünən XV Avropa Gənclər Olimpiya Festivalında qız tennisçilərin mübarizəsi britaniyalı atletin çempionluğu ilə başa çatıb.

Böyük Britaniya təmsilçisi Matilda Mutavdziç Bakı Tennis Akademiyasında keçirilən yarışın final qarşılaşmasında rusiyalı Mariya Şoloxovanı 2:0 (6:1, 6:1) hesabı ilə məğlub edərək qızıl medala sahib olub.

Bürünc medal uğrunda görüşdə isə çexiyalı Dominika Salkova fransalı Ouşen Babeli 2:1 (6:2, 0:6, 12:10) hesabı ilə məğlub edib.

## Zoran LAZAREVİÇ: “Festivalın bayram ab-havasını özümlə vətənimə aparacağam”



“Bu turnirdə komandamızın iştirakı çox müsbət haldır. Çünki bu, komandamız üçün böyük təcrübədir. Festivalın bayram ab-havasını özümlə vətənimə aparacağam. Azərbaycan xalqını bu mötəbər yarışa yüksək səviyyədə evsahibliyi etməsi münasibətilə təbrik edirəm. Azərbaycan möhtəşəm ölkədir, bunu sözlə ifadə etməyə çətinlik çəkirəm”.

Bu fikri kişi həndbolçulardan ibarət Serbiya milli komandasının baş məşqçisi Zoran Lazareviç söyləyib. O deyib: “Azərbaycan və Serbiya arasında sıx münasibətlər var. İki ölkə arasında mədəniyyət sahəsində də oxşarlıq çoxdur. Yarışların keçirildiyi bu bir həftə ərzində zərrə qədər darıxmadım. Bizə yaradılan şərait üçün həm komandamız, həm də federasiyamız adından minnətdarlığımızı bildiririk”.

## İdman gimnastikasında Britaniya və Ukrayna hegemonluğu



XV Avropa Gənclər Yay Olimpiya Festivalında idman gimnastikası yarışlarında qaliblər müəyyənləşib.

Qadınların sərbəst hərəkətlər üzrə yarışlarında rusiyalı Viktoriya Listunova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Gimnastika tiri yarışlarında Böyük Britaniya idmançısı fərqlənib. Belə ki, hakimlərdən 13,666 xal alan Ondin Açamponq yarışı birinci pillədə başa vurub. Kişi gimnastların dayaqlı tullanma yarışlarında da Britaniya təmsilçisi Reykvon Batist 13,983 xalla cempionluq sevincini yaşayıb.

Kişi gimnastların turnikdə yarışlarında 13,366 xalla Ukrayna gimnastı İlya Kovtun qızıl medal qazanıb. Fransa təmsilçisi Lukas Desanj 13,233 xalla yarışı ikinci, italiyalı İvan Brunello isə 13,200 xalla üçüncü pillədə başa vurublar. Paralel qollarda çıxışda da ukraynalı İlya Kovtun 14,600 xalla bütün rəqiblərini qabaqlayaraq festivalın qalibi olub. Onun komanda yoldaşı Vladimir Kostyuk (14,300 xal) isə gümüş medala sahiblənib.

Milli Gimnastika Arenasında keçirilən yarışlarda Avropanın 37 ölkəsinin idmançıları mübarizə aparıblar.



# XV Avropa Gənclər Yay Olimpiya Festivalı

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL





# Azərbaycandan daha bir nümunə

# 10 qızıl, 7 gümüş, 6 bürünc

## Yüksək nailiyyət: Azərbaycan 48 ölkə arasında 4-cü oldu

| | Ölkələr | qızıl | gümüş | bürünc |
|---|---|---|---|---|
| 1. | Rusiya | 28 | 17 | 21 |
| 2. | Böyük Britaniya | 11 | 12 | 2 |
| 3. | Türkiyə | 11 | 6 | 10 |
| 4. | AZƏRBAYCAN | 10 | 7 | 6 |
| 5. | İtaliya | 8 | 9 | 9 |

*Əvvəli 1-ci səh.*

Bu Festival bir daha təsdiq etdi ki, Azərbaycan ən mötəbər beynəlxalq idman tədbirlərinin, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-Pri yarışlarının keçirilməsində kifayət qədər böyük təcrübəyə malik bir ölkədir.

Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edən mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizə apardı. İştirakçıların 52 faizi oğlanlar, 48 faizi isə qızlar idi. İdmançılar 135 dəst medal uğrunda güclərini sınadılar. Mükafatçılara 300 qızıl, 300 gümüş, 330 bürünc medal təqdim edildi. Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərdi.



Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və Olimpiya medalçıları üçün əsl sınaq meydanıdır. Bu, çox az sayda istisnalarla çox idman növlü ilk Olimpiya təcrübəsidir. Bu, gənc idmançıların həyatında idmanın inkişafında yeni səhifənin açılması deməkdir. Burada bacarıqların nümayiş etdirilməsi üçün əla şans var. Bu, həmçinin Avropada idmançıların yeni nəslinin Olimpiya idealları, bütün xalqlar arasında sülh, dostluq və əməkdaşlıq amalları, bütövlük, həmrəylik, düzgünlük və ədalətli oyun ideyaları ilə formalaşdırılmasını sübuta yetirmək fürsətidir.

Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki festivalda 43 ölkənin idmançıları mübarizə aparıblar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb.

1997-ci ildə cənab İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başlayıblar. 1999-cu ildə Danimarkanın Esbyerq şəhərində keçirilmiş festivalda üç bürünc medal qazanan komandamız 2001-ci ildə İspaniyanın Mursiya şəhərində 2 gümüş və 2 bürünc, iki il sonra Parisdə 2 gümüş və 1 bürünc, 2005-ci ildə İtaliyanın Linyano şəhərində 2 qızıl və 4 bürünc medala sahib olub. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atıb. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutub.

Azərbaycanın gənc idmançıları 2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Gürcüstanın paytaxtı Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhərində keçirilən festivalda isə 1 gümüş və 1 bürünc medal qazanıblar.

"Zirvələrə hazırıq" devizi altında keçirilən "Bakı-2019"da isə tarixi zəfər yaşandı. Azərbaycan festivala 122 idmançı ilə qatılmışdı.

Hər bir beynəlxalq yarışda ölkəmizi layiqincə təmsil edən idmançılarımız bu Festivalda da bacarıqlarını nümayiş etdirdilər. Gənc atletlərimizin uğurlu çıxışları sayəsində Azərbaycan 23 medalla (10 qızıl, 7 gümüş, 6 bürünc) 48 Avropa ölkəsi arasında 4-cü oldu.

Əminliklə deyə bilərik ki, bu uğur Azərbaycan idmançılarını daha mötəbər yarışlarda qələbə qazanmağa ruhlandıracaq və gənc atletlərimiz Azərbaycan bayrağını hələ çox zirvələrdə dalğalandıracaqlar.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*



## Beril Böcəklər 3 qızıl medalla Festivalın tarixinə düşdü

Uzgüçülük yarışlarında da maraqlı anlar yaşanıb. Türkiyə üzgüçüsü Beril Böcəklər bu yarışmanın tarixinə düşüb. Üzgüçü fərdi yarışlarda 3 qızıl medal qazanıb.

Üç dəfə fəxri kürsünün ən yüksək pilləsinə qalxan Beril 200, 400 və 800 metr məsafələrə sərbəst üzmə yarışlarında hamını qabaqlayaraq qızıl medallara sahib çıxıb.

## CÜDO - Türkiyə millisi komanda yarışının qalibidir




Dünən cüdo üzrə qarışıq komanda yarışları da başa çatıb. Qardaş ölkə Türkiyə millisinin komandası çempionluq sevincini yaşayıb.

Türkiyəli cüdoçular dörddəbir finalda İtaliyaya (4:0), yarımfinalda Gürcüstana (4:0) qalib gələrək finala yüksəlib. Həlledici qarşılaşmada Türkiyə yığmasının rəqibi Rusiya millisi olub. Finalda əzmkarlıq göstərən ay-ulduzlu komanda 4:0 hesabı ilə qalıb gələrək Festivalın qızıl medallarına sahib çıxıb. Bürünc medallara isə Almaniya və Macarıstan komandaları layiq görülüblər.

Ümumiyyətlə, cüdo yarışlarında ən çox medalı Türkiyə yığması qazanıb. Qardaş ölkənin idmançıları 5 qızıl və 1 gümüş medala sahib olublar. Aktivində 2 qızıl, 2 gümüş və 2 bürünc medal olan Hollandiya seçməsi ikinci yerdə qərarlaşıb. İlk üçlüyü isə 2 qızıl, 1 gümüş və 3 bürünc medalla Azərbaycan tamamlayıb.

## ATLETİKA - son gündə "medal yağışı"






Festivalın atletika yarışlarına dünən yekun vururub. Sonuncu gündə qızlar arasında 100 metr məsafəyə maneələrlə qaçış, 1500 metr məsafəyə qaçış, estafet və oğlanlar arasında 800, 2000 metr məsafəyə maneələrlə qaçış, diskatma növlərində mükafatçılar müəyyənləşib.

Qızlar arasında 100 metr məsafəyə maneələrlə qaçış yarışında fransalı Lea Vendome 13,52 saniyə nəticə ilə qızıl medal qazanıb. 1500 metr məsafəyə qaçış yarışında isə Almaniya təmsilçisi Antye Pfueller 4 dəqiqə 28 saniyə nəticə ilə qızıl medala sahib çıxıb.

Oğlanlar arasında 2000 metr məsafəyə maneələrlə qaçış yarışında İspaniya təmsilçisi Pol Oriaç (5 dəqiqə 49 saniyə) fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Oğlanların 800 metr məsafəyə qaçış yarışında Çexiya atleti Yakub Davidik (1,51 dəqiqə) bütün rəqiblərini qabaqlayaraq çempion adını qazanıb. Oğlanlar arasında diskatma yarışında belaruslu Roman Kartanoviç 63,09 metr nəticə ilə qızıl medala sahib olub.

Estafet mübarizəsində də həm qızlar, həm də oğlanlar arasında qalib və mükafatçılar müəyyənləşib. Oğlanların yarışında, müvafiq olaraq, Polşa, İsveç və İspaniya atletləri qızıl, gümüş və bürünc medala sahib çıxıblar. Qızların analoji yarışında isə çempionluğu İspaniya komandası bayram edib. Yunanıstan idmançıları 2-ci, İsveçrə atletləri 3-cü yeri tutublar.



## BASKETBOL - Fransa yığmasının çempionluğu

Qızlardan ibarət basketbol komandalarının yarışı Fransa yığmasının çempionluğu ilə başa çatıb. Yarışların finalında Macarıstan seçməsini 64:59 hesabı ilə məğlubiyyətə uğradan Fransa millisi festivalın qızıl medalını qazanıb.

Bürünc medal uğrunda görüşdə Rusiya millisi Çexiyanı (53:43) məğlubiyyətə uğradıb.

## HƏNDBOL - Xorvatiyanın oğlanları, Fransanın qızları...

XV Avropa Gənclər Yay Olimpiya Festivalında oğlanların və qızların həndbol yarışlarında Xorvatiya və Fransa milli komandaları qızıl medallar qazanıblar.



Oğlanların yarışında çempion adı uğrunda Xorvatiya və Almaniya yığma komandaları görüşüblər. Gərgin idman mübarizəsi şəraitində keçən qarşılaşmada 29:28 hesabı ilə çətin qələbə qazanan Xorvatiya komandası "Bakı 2019"un çempionu olub. Bürünc medallara Fransa təmsilçilərini 28:21 hesabı ilə məğlubiyyətə uğradan Danimarka həndbolçuları layiq görülüblər.



Qızların yarışında isə finalda Hollandiya və Fransa yığma komandaları qarşılaşıblar. Görüşdə 23:21 hesabı ilə qalib olan Fransa millisi festivalın qızıl medalını qazanıb. Üçüncü yer uğrunda görüşdə İsveçrə millisi üzərində 30:20 hesabı ilə qələbə qazanan Macarıstan həndbolçuları festivalın bürünc medallarına sahib olublar.

## VOLEYBOL - rusiyalı qızlar çempionluq yaşadı



XV Avropa Gənclər Yay Olimpiya Festivalında voleybol üzrə qızların yarışında çempion müəyyənləşib. Final görüşündə Rusiya və Rumıniya milli komandaları qarşılaşıblar. Rusiyalı voleybolçular gərgin idman mübarizəsi şəraitində keçən oyunda 3:1 hesabı ilə qalib gələrək çempion olublar.

Bürünc medal uğrunda yarışda isə Türkiyə-İtaliya oyunu keçirilib. Qardaş ölkənin voleybolçu qızları 3:0 (25:23, 25:21, 25:23) hesabı ilə qələbə qazanaraq fəxri kürsünün üçüncü pilləsində yer alıblar.

## İspan basketbolçuların qızıl medal sevinci

Festivalın sonuncu günündə oğlanlar arasında keçirilən basketbol yarışlarında qalib müəyyənləşib. Yarışın həlledici qarşılaşması Türkiyə və İspaniya komandaları arasında oynanılıb.



Oyunda 65:52 hesabı ilə qalib gələn İspaniya yığma komandası XV Avropa Gənclər Yay Olimpiya Festivalının qızıl medalına sahib olub. Üçüncü yer uğrunda görüşdə Serbiya seçməsi Fransa yığmasını 75:57 hesabı ilə məğlub edərək bürünc medala layiq görülüb.

Yarışda 5-6-cı yerlər uğrunda görüşdə Litva basketbolçuları Yunanıstan komandasına qalib gəlib - 86:76. Azərbaycan basketbolçuları isə 7-8-ci yerlər uğrunda mübarizədə Xorvatiya təmsilçiləri ilə qarşılaşıblar. Hesab 31:44 olarkən yüksək əzmkarlıq göstərən komandamız 64:51 hesabı ilə qələbə qazanmağa nail olub.

# Regionun qüdrətli hərbi gücü

## Azərbaycan Silahlı Qüvvələri dünyanın modern standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır

*Əvvəli 1-ci səh.*

Artıq bu istiqamətdə son 16 ildə möhtəşəm nailiyyətlərə imza atılıb. Prezident İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində bu dövrdə ordumuzun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmləndirilib, hərbçilərin sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb.

Ordunun döyüş imkanlarının artırılması sahəsində diqqət yetirilən əsas məsələlərdən biri isə modernləşmə, yəni ən son hərbi texnologiyaların silahlanmaya cəlb edilməsidir. Bu baxımdan indiyədək keçirilən möhtəşəm paradlarda nümayiş etdirilən silah və texnikalar Silahlı Qüvvələrimizin həm güc və qüdrətini, həm də modernləşdiyini təsdiqləyir. Bu paradlar həm də xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarına sədaqət və ehtiramının təntənəsi və gözəl nümunəsi idi. Çünki Azərbaycan Silahlı Qüvvələrinin qüdrətlənməsi və işğal olunmuş ərazilərimizi istənilən an azad etməyə qadir mükəmməl bir orduya çevrilməsi yönündə Prezident İlham Əliyev tərəfindən göstərilən yüksək əzmkarlıq Heydər Əliyev ideyalarının davam etdirilməsi deməkdir.

Hazırda Azərbaycan Silahlı Qüvvələri regionun qüdrətli hərbi gücüdür. Ən mühümü odur ki, ölkəmiz işğalçı Ermənistan qarşısında əzici üstünlüyə malikdir. Bunu ötən illərdə baş vermiş bir sıra hadisələr də təsdiqləyir. 2014-cü ilin avqust hadisələri, 2016-cı ilin aprel döyüşləri və nəhayət bu il Naxçıvanda Günnüt zəfəri Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqidir. Son iki döyüşdə ordumuz əlverişsiz mövqelərdən çıxaraq strateji mövqelərə sahib oldu. Bu strateji yüksəkliklər, mövqelər, işğaldan azad edilmiş ərazilər imkan verir ki, təmas xəttində mövcud olan vəziyyətə tam nəzarət edilsin və istənilən tədbir görülsün.









Hazırda dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları silahlar Azərbaycanda var. Bunun nəticəsidir ki, Cənubi Qafqazın ən qüdrətli ordusuna malik Azərbaycanın Silahlı Qüvvələri öz döyüş hazırlığına görə MDB məkanında ön sıralarda gedir. Həmçinin beynəlxalq reytinq agentliklərinin hesabatlarında Silahlı Qüvvələrimiz dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları ilə bir sırada yer alır. Məsələn, bu günlərdə ABŞ-ın "Global Firepower" araşdırma mərkəzinin açıqladığı dünyanın ən güclü ordularının siyahısında Azərbaycan Silahlı Qüvvələri də yer alır. Mərkəzin dünyanın 137 ölkəsinin hərbi gücü ilə bağlı araşdırmasına əsasən, Azərbaycan 52-ci yerdə qərar tutub. Bununla yanaşı, Azərbaycan tank və zirehli maşınlar, raket və artilleriya sistemləri göstəricilərinə görə siyahıda daha da qabaqdadır. Belə ki, "Global Firepower" hesab edir ki, Azərbaycan Ordusu tanklarına görə dünyada 32-ci, zirehli döyüş maşınlarına görə 41-ci, özüyeriyən artilleriyaya görə 27-ci, raket sistemlərinə görə isə 21-ci yerdədir.

Bu siyahıda ölkəmiz Qazaxıstan, Macarıstan, Avstriya, Çili, Slovakiya, Birləşmiş Ərəb Əmirlikləri, Finlandiya, Filippin, Portuqaliya, Belçika, Yeni Zelandiya kimi qabaqcıl ölkələrdən irəlidədir. Cənubi Qafqaz regionundan Gürcüstan 85-ci, işğalçı Ermənistan isə 96-cı yerləri tutublar.

Təbii ki, hər bir ordunun gücü həm də onun şəxsi heyətinin mənəvi-psixoloji durumunun yüksək səviyyədə olmasından asılıdır. Fəxarət hissi ilə qeyd etməliyik ki, Azərbaycan Silahlı Qüvvələrində rütbəsindən asılı olmayaraq xidmət keçən hər bir şəxs öz hərbi borcunu layiqincə yerinə yetirir. Ordumuzda fərarilik halı isə ümumiyyətlə yoxdur. Prezident İlham Əliyevin tapşırığına əsasən bu günlərdə hərbi hissələrdə olan Müdafiə naziri Zakir Həsənov da bölmələrin döyüşə hazırlıq səviyyəsini yoxlayarkən şəxsi heyətin mənəvi-psixoloji hazırlığını da yüksək qiymətləndirib.

Bütövlükdə, qürurverici göstəricilərin nəticəsi olaraq qeyd etdiyimiz kimi, Azərbaycan Silahlı Qüvvələrinin adı dünyanın güclü, müasir standartlara uyğun yenidən qurulan və təchiz edilən orduları sırasında çəkilir. Bundan başqa, ölkəmizdə yaradılan müdafiə sənayesi kompleksi Azərbaycanda ən müasir hərbi texnikanın istehsalına geniş imkanlar yaradır. Təsadüfi deyil ki, indi Azərbaycanda istehsal olunan silah-sursat növləri öz göstəricilərinə görə fərqlənir və bir sıra orduların arsenalında yer alır.

Azərbaycanda həyata keçirilən inkişaf strategiyası Silahlı Qüvvələrimizin də müasir standartlara cavab verən peşəkar orduya çevrilməsində mühüm rol oynayıb. Ordumuz artıq çoxdandır ki, arzuladığımız səviyyəyə çatıb, öz döyüş imkanları ilə fərqlənən hərbi gücə çevrilib. Xalqımız öz Silahlı Qüvvələri ilə fəxr edir və sülh danışıqları nəticəsiz qalacağı təqdirdə Azərbaycan əsgəri öz sözünü deyəcək, ən müqəddəs missiyasını zəfərlə yerinə yetirəcəkdir.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# "Bir dön bizim Bakıya bax"

## İlin bütün fəsillərində paytaxtımız qonaq-qaralı olur

Bakının hüsnü hər zaman gözəl olub. Bu gün isə paytaxtımız bir özgə libasdadır: müasirliyi ilə dünyanı heyran edir. Qızmar yay günləri olmasına baxmayaraq, şəhərimizin gəzməli, görməli məkanları əcnəbi turistlərlə doludur. Bakı tarixən dünya səyahətinə çıxanların diqqətində olub və bu, onların xatirələrində yaşadılıb. Son illər paytaxtın beynəlxalq mədəni-kütləvi, eləcə də idman yarışlarına evsahibliyi etməsi isə ölkəmizə xarici qonaqların kütləvi axınına da səbəb olub. Bu gün Avropa Azərbaycanı inkişaf etmiş dövlət olaraq tanıyır və beynəlxalq miqyaslı tədbirlərin burada keçirilməsini məqbul sayır.



















Hazırda ölkəmizdə keçirilən beynəlxalq tədbirlərin sırasına daha biri də əlavə edilib. O, "Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalıdır ki, iyulun 21-dən start götürüb və dünyanın diqqətini yenidən Bakıya yönəldib. Təbii ki, ölkəmizə turist axınının səbəblərindən biri də bu festivaldır.

Əvvəlki beynəlxalq yarışlarda olduğu kimi, bu dəfə də incəsənət xadimlərinin iştirakı ilə paytaxtın müxtəlif məkanlarında rəngarəng proqramlı mədəni-kütləvi tədbirlər təşkil edildi. Bu, təbii ki, istər festival iştirakçılarının, istərsə də turistlərin istirahətlərinin təmin olunmasında mühüm amillərdəndir.

Yolumuzu İçərişəhərdən salıb əsrlərin yaşıdı Qız qalasınadək paytaxtın əcnəbi qonaqlarda yaratdığı təəssüratlardan bəzi məqamları qələmə alıb, fotoaparatın yaddaşına yazmalı olduq. Öncədən qeyd edək ki, hava isti olsa da, əcnəbi qonaqlarımız heç də "kölgələnmək" fikrində deyildilər. Diqqətçəkən məqamlardan biri qarşılaşdığımız turistlərin əksəriyyətinin bu il Azərbaycana ailəliklə gəlmələridir.

Onlardan biri ilə Filarmoniya bağında tanış oluruq. Rusiya Federasiyasının Sankt-Peterburq şəhərindən gəlmiş Aleksandr Osetrova Qala divarlarına heyranlıqla baxan ailə üzvlərini təqdim edir:

- Kseniya Qoloxvastova, Nataliya Mixeeva və Darya Çernova (Torşilova) ilk dəfədir ki, Bakıda olurlar. Paytaxt Bakı haqqında məlumatımız az deyildi, lakin burada olmaq, dost, qonşu, qardaş Azərbaycan xalqının qonaqpərvərliyini görmək, nəhayət ki, bizə də nəsib oldu. İçərişəhərin qədimliyi paytaxt Bakının müasirliyi ilə təzad yaratmayıb. Düşünürük ki, Azərbaycan xalqının tarixi qədim olduğu üçün onun belə əvəzedilməz yadigarları da var. Vaxtilə Sankt-Peterburqla Bakı qardaşlaşmış şəhərlər kimi tanınırdı. Sevinirik, burada belə gözəl tolerantlıq mühiti qorunub saxlanır. "Bakı-2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalını da izləyirik. Rusiyadan olan iştirakçılara azarkeşlik etməklə yanaşı, Azərbaycan komandalarının da oyunları bizi maraqlandırır. Belə beynəlxalq yarışlara evsahibliyi o qədər də asan deyil, amma Bakı və xalqınız belə mötəbər tədbirlərin keçirilməsində öz təcrübəsi ilə Avropaya da nümunə göstərir.

Filarmoniya bağından aralanıb İçərişəhərin daş küçələrinə keçən daha bir turist ailəsi ilə tanış oluruq. İqor Qez Ukraynanın Dnepropetrovski şəhərindən gəldiklərini söyləyir. Əlavə edir ki, Yelizaveta ilə Natalya da onun ailə üzvlərindəndir. Keçmiş SSRİ-nin müttəfiq respublikaları arasında daha çox başı müsibətlər çəkən Azərbaycan və Ukraynanın oxşar tale yaşamalarına təəssüflənsə də, dövlət müstəqilliyini bərpa edən xalqların bir-biri ilə mehribanlığının digərlərinə nümunə olduğunu da gizlətmədi. Azərbaycanın daha çox inkişaf etməsini isə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasətlə bağlılığını xüsusi vurğuladı: "Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bu inkişafdakı böyük zəhmətləri xalqa, dövlətə, Vətənə layiqli xidmətdir. Bakının görməli, gəzməli yerləri az deyil. Məzuniyyət müddətini Azərbaycanda keçirmək bizim arzumuz idi. Festivalın burada keçirilməsi isə həmin istəklərimizi reallaşdırdı. Əmin-amanlıq, dinclik, xalqların burada bir ailə kimi yaşaması bizi ölkənizə gətirən səbəblərdəndir. Qonaqpərvər xalqınız haqqında çox eşitmişdik, gəlib gözlərimizlə gördük və bir daha əmin olduq ki, Azərbaycan, doğrudan da qısa zaman ərzində böyük inkişaf yolu keçib".

Turistlərlə söhbətdən bir daha anladıq ki, Şərqlə Qərb mədəniyyətlərinin bir araya gətirildiyi Azərbaycanın humanitar sahədəki təcrübəsi dünya xalqlarının marağına səbəb olub. Mədəni dəyərlərin öyrənilməsi və onlardan istifadə edilməsinə son illər daha çox diqqət ayrılmasının da səbəbləri az deyil. Deyirlər ki, mədəniyyətin və idmanın dili daha çox anlaşıqlıdır, nəinki siyasətin. Buna görə də mədəni əlaqələrin daha da genişlənməsi xalqlar arasında ünsiyyəti vacib amil kimi ortaya çıxarıb. Bunu turistlərlə həmsöhbətdən də açıq-aydın hiss edirdik...

***Məhəmməd NƏRİMANOĞLU,***
***Fərman BAĞIROV (foto),***
***"Azərbaycan"***



# Cəfər Cabbarlı-120



Realist sənətkar



# Dramaturqun poetik irsi

**Azərbaycan dramaturgiyasının ölməz sənətkarı Cəfər Cabbarlı milli ədəbi-ictimai mühitdə çox erkən yaşlarından lirik və satirik şeirləri ilə görünməyə başlamışdır. C.Cabbarlı irsinin son dövr tədqiqatçılarının araşdırmalarına görə, bu tarix 1911-ci ilin 5 noyabrında "Həqiqəti-əfkar" qəzetində dərc edilən "Eşidənlərə" və "Şücaətim" şeirlərindən başlanğıc götürmüşdür. Onun poeziyası ədəbiyyatşünas alimlərdən M.A.Dadaşzadənin "Cəfər Cabbarlının yaradıcılığı", A.Abdullazadənin "Şair Cəfər Cabbarlı" və R.Sadıqovun "Cəfər Cabbarlı yaradıcılığının ilk dövrü" monoqrafiyalarında ətraflı tədqiq və təhlil edilmişdir. Bu əsərlərdə sənətkarın ilk mətbu şeirlərinin 1915-ci ildə çap edilən "Bahar" və "Qürub çağı bir yetim" olması göstərilmişdir.**

Görkəmli sənətkarın 90 illik yubileyi münasibətilə "Şair C.Cabbarlı" kitabını nəşr etdirən A.Abdullazadə burada "Lirikası", "Satirası", "Dram poeziyası" və "Nəsr poeziyası" fəsillərində onun şeir yaradıcılığını əhatəli tədqiq və bədii cəhətdən təhlil etmişdir. Yeniyetmə Cəfər ilk lirik şeirlərini müəllimi Abdulla Şaiqin, satirik şeirlərini isə böyük Sabirin təsiri ilə qələmə almışdır.

C.Cabbarlı 1915-1916-cı illərdə "Babayi-Əmir" jurnalında 40-dan artıq satirik şeir dərc etdirmişdi. "Qiyamətmi qopar", "Dəng olduq", "Birbəbir", "Özün bil", "Qızlardan kişilərə protesto", "İtilget", "Halın necədir" və s. kimi satirik şeirlərində mühitinin aktual ideya-mövzuları: savadsızlıq, mövhumat və cəhalət, avamlıq, qadın hüquqsuzluğu və s. əsas yer tuturdu. Bu ilk qələm təcrübələrində istedadlı gənc həm məzmun, həm də forma cəhətdən Sabir şeirinin təsir dairəsindən çıxa bilməmişdir. Akademik Məmməd Arifin qeyd etdiyi kimi, "bu təsir hələ səthidir; Sabir şeirlərindəki ideya-mövzu dərinliyi, siyasi kəskinlik Cabbarlının satirasında yoxdur". Ancaq gənc istedadın öz yaradıcılığını "millətin dərdinə-qəminə" yönəltməkdə bu ustad məktəbindən öyrəndiyi dərslərin böyük əhəmiyyəti oldu. C.Cabbarlı yaradıcılığının ilk dövrünün tədqiqatçısı filologiya üzrə fəlsəfə doktoru R.Sadıqovun da qənaətinə görə "ədibin satirik şeirləri aktual məişət və ictimai mövzuda yazılsa da, müəllifə şöhrət gətirməmişdir".

Satirik örnəklərindən "Səbətə ithaf" və "Müdirim" şeirləri gənc Cəfərin bilavasitə fərdi yaşantıları nəticəsində yarandığı və onun ilkin sənət görüşlərini inikas etdiyi üçün maraq doğurur. Ömürgün yoldaşı Sona xanımın xatirəsinə görə məktəbli Cəfər ilk şeirinin 1911-ci ildə çapından sonra tez-tez qəzet və jurnal redaksiyalarına öz yazılarını aparır, redaktorlar isə çəlimsiz 12-13 yaşlı oğlanın gətirdiyi vərəqləri uzun müddət heç oxumadan bürmələyib səbətə atırmışlar. Düz dörd il məruz qaldığı bu vəziyyətdən pərtlik və məyusluq hissləri nəhayətdə "Səbətə ithaf" şeirinin yaranması ilə nəticələnir. Eləcə də bu məzmunun davamı olan "Müdirim" şeiri gənc istedadın yaradıcılıq barədə ilkin qənaətlərinin, fərdi yaşantılarının ümumiləşmiş ifadəsi idi. Belə ki, tənqid obyektində "hər kitabdan bir-iki söz almaqla şeir quraşdıran", "şöhrət xatirinə fars-ərəb dilində yazmağa" üstünlük verən, qafiyədən, vəzndən başı çıxmayan şairlik azarına tutulanlar tipikləşib orijinal bir üsulla ifşa olunurdular. Şeir bugünümüz üçün də çox əhəmiyyətlidir.

Çəkirəm hərdən on-on beş gün azından zəhmət...
Hər kitabdan alıram bir-iki söz, bir söhbət,
Yazıram, göndərirəm şeir, alım bir şöhrət,
Yazdığımdan oluram sonra peşiman, a səbət!
Hamı yazdıqlarım olmuş sənə mehman, a səbət!

C.Cabbarlı ilk lirik şeirlərində dövrünün romantik poeziyasının görkəmli sənətkarları M.Hadi, H.Cavid, A.Səhhətin təsir dairəsində olmuşdur. "Qürub çağı bir yetim", "Kiçik sərsəri", "Bahar", "Boranlı bir qış gecəsi", "Bayram saxlayanlara" və s. şeirlərində cəmiyyətin yoxsul, xəstə, zəif insanlarının acınacaqlı halına yanmaq, mərhəmət göstərmək, xeyirxahlığa çağırış və s. motivlər dərin yanğı ilə öz ifadəsini tapmışdır. İdeya-məzmununda maarifçi görüşlər, romantik pafos, klassik poetikanın forma qəlibləri üstünlük təşkil etsə də, arabir gənc istedadın fərdi üslubunun satirik ovqata meyilli işartıları da görünürdü.

Gənc istedadın ilk lirik örnəklərindən olan "Ana" şeirinin yazılma tarixi ilə bağlı məşhur aktyor İsmayıl Hidayətzadənin həyat yoldaşı Soltan xanım Atakişiyevanın xatirəsində belə bir qeyd var: "Mən Cəfərlə 1916-cı ildə Xanlarovun mənzilində tanış oldum. Məclisdə yalnız tələbələr idi. Bunların içərisində Cəfər daha çox xoşuma gəldi. Özünün "Ana" şeirinin ilk variantını oxudu. Elə hiss və pafosla oxudu ki, hamı heyran qaldı". Hələ ənənəvi poetikanın təsirilə fərdi dəstxəti seçilməyən gənc şairin birdən-birə "Ana" kimi parlaq bir lirik şeir yaratmasına ilk növbədə çox güclü daxili yaşantılar təkan verə bilərdi. Yazıçının həyat yoldaşı Sona xanımın xatirəsində C.Cabbarlının anası Şahbikə xanımın çox işgüzar, səliqəli, saf təbiətli olması nəzərə çatdırılır. 1903-cü ildə əri Qafar kişi öləndən sonra uşaqlarını dolandırmaq məqsədilə qulluqçuluq etdiyi varlı ailəsində gözəl insani keyfiyyətlərinə görə tezliklə ona aşbazlıq həvalə olunmuş, bir müddət sonra isə evin ağası ona xanımını Məkkə ziyarətində müşayiət etməyi xahiş etmişdir. Bu hadisədən sonra Şahbikə ana qohumların, məhəllənin ən hörmətli ağbirçəyi, məsləhətçisi, güman yeri olan bir hacıxanım kimi tanınıb sevilmişdir.

Lirik şeirin yaranmasında fikri-hissi təlatüm yaradan emosional başlanğıcın özəlliyi şübhəsizdir. Ancaq həmin həyəcanlı məqamın yaşantılarına bədii sözlə sənətdə əbədi həyat vermək üçün yaradıcının fitri istedadı ilə yanaşı ümumiləşdirmək qabiliyyəti, sənətkarlıq bacarığı da önəmlidir. C.Cabbarlının "Ana" şeiri nəinki milli poeziyamızda bu mövzuda ilk şeir idi, həm də ümumiyyətlə, Şərq poeziyasında ənənəvi aşiq-məşuq duyğular aləminin tərənnümündən fərqli fərdi könül intibalarının yeni bir səmtini açıqlayırdı. Doğrudur, əsrin əvvəlində böyük türk şairi Tofiq Fikrət də "Ana" adlı şeir yazmışdı. Ancaq orada xəstə, dilənçi bir qadının qucağında tutduğu körpəyə sevgisi, nəvazişi ilə necə dəyişilib zənginləşməsindən bəhs olunurdu.

C.Cabbarlının "Ana" şeirinin məzmunu isə övladın Anaya bəslədiyi hisslərin bədii inikası ilə bağlıdır. Şeir fikri-hissi yaşantının assosiativ poetik ifadəsinə görə bütövlük təsiri bağışlayır; gah yüksələn xətt üzrə inkişaf edən, gah da enib-qalxan struktura malikdir; birinci hissədə lirik "mən" özünü bütün varlıqlardan yüksəkdə bildiyi mənəvi qüdrətini ifadə edir; insanın qarşılaşa biləcəyi ən təhlükəli, qorxunc məqamlara qarşı qoymaqla kimliyi: ruhi-mənəvi əzmi, qüvvəti, qüruru haqda təsəvvür yaradır.

A.Abdullazadə yazır ki, "Şeir Ana haqqında yazılan coşqun bir simfoniyanı xatırladır". Həqiqətən romantik tərənnümün yüksək bəlağətli intonasiyası kəskin təzadlar, mübaliğələr, metaforalarla lirik "mən"in ruhi-mənəvi özəlliyini daha təsirli çatdırır. Çılğın enerjili "Cahanda yox elə bir qüvvə baş əyim ona mən" deyə hökmlü nidasından sonra sözün leksik-semantik variasiyaları sayəsində ahəngin həzin pıçıltıyadək enişi lirik xarakterin tamamilə zidd ovqatına keçid edir və onun mənəviyyatının yeni xüsusiyyətlərini üzə çıxarır.

Şair "Ana" dediyi bu "zəif vücudun qarşısında bir qul tək həmişə səcdədə olmağı" ən böyük fəxarət və səadət, onun əliylə gələn hər bəlanı "bəzmi-istirahət" sanır. Məmməd Arif doğru olaraq qeyd edirdi ki, "Hiss-həyəcandakı səmimiyyət, ehtiraslardakı qüvvət, ifadədəki sadəlövhcəsinə mübaliğələr bizə ancaq gənc Cabbarlının qələmini xatırlada bilər". Lirik "mən" titrək hisslərin əzəmiliyinin təsirilə yenidən coşur; insanların iradəsi xaricində olan bütün təbiət qüvvələrinə də "əs", "ləpələn", "bağır", "atıl", "alış", "gurulda", "çatla", "dağıl", "yağdır" deyə meydan oxuyur. "Bunlar mənə əsər eylərmi? Mütləqa yox! Yox! Yox!" deyə nərə çəkir. Və yenə çox həzin bir ahəngə keçid edib, iç dünyasında yaşatdığı müqəddəs duyğularını dilə gətirir, artıq hər kəsin qəlbində canlandırdığı öz doğmasına pərəstişkaranə sevginin son nidalarını səsləndirir.

## "Ana, Ana! Sənə mən rahibəm itaətdə!"

Bununla da şeir bitir.

Məlum olduğu kimi, C.Cabbarlı Azərbaycanda müstəqil dövlətin yaradılmasını hədsiz sevinclə qarşılamış və onun fəaliyyətində yaxından iştirak etmişdir. Həmçinin bədii yaradıcılıqla da məşğul olmuş, mətbuatda "Sevimli ölkəm", "Sevdiyim", "Azərbaycan bayrağına", "Salam", "Yaşamaq" kimi vətənpərvərlik ruhlu lirik şeirlər dərc etdirmişdir.

İllərdən bəri C.Cabbarlının məsuliyyətli və yorulmaz tədqiqatçısı Asif Rüstəmli ilə razılaşırıq ki, "milli bayrağın simvolika açımını ilk dəfə C.Cabbarlı poeziyaya gətirmişdir". Bu dövrdə şeirlərinin nəinki ideya-məzmunu təzələndi, həm də poetik strukturunda, bədii təsvir və ifadə vasitələrində fərqli dəyişiklik üzə çıxdı. Şeir dili xeyli sadələşdi və klassik poeziyanın əruz bəhrləri də xalq şeirinin ritmik növləri ilə əvəzləndi. Məşhur "Sevimli ölkəm", "Azərbaycan bayrağına" və s. şeirlərində olduğu kimi:

Şiş ucları buludlarla döyüşən,
Dağlarında buzları var ölkəmin.
Göy otlardan ipək paltar geyinən
Tarlaları, düzləri var ölkəmin.

Həmin şeirlərdə şairin ən böyük uğurlarından biri də milli poeziyamızda ilk dəfə ictimai məzmunun nikbin intonasiya ilə səslənməsi idi. Təəssüf ki, bu şad, xürrəm poetik ovqatın ömrü çox qısa olmuş, milli azadlığın bəxtiyarlığını təzəcə dadmış gənc Cəfər artıq 1920-ci ilin aprelində "Yaşamaq" şeirində dərin kədərlə fəğan edirdi:

Neçin? Neçin yaşamaq? Ölməmək?! Nədir mənə?..
Neçin həyata səbəbsiz dözüb, ayaqlanmaq?
Nədir? Nədir dirilik yurdu? Qanlı bir ölkə?
Ölüm!... Nə tatlı şey...Bu əzaba son çəkər bəlkə...

Milli dövlətin məcburən süquta məruz etdirilməsi səbəbindən sarsıntılar keçirən C.Cabbarlının lirik şeiri artıq facië qəhrəmanının monoloqunu xatırladırdı. Acizanə vəziyyətə düşdüyü bu fəlakət səbəbindən çəkdiyi iztirabların müqabilində ölümü "əzaba son çəkər" deyə "tatlı bir şey" kimi məcazlandırırdı. Lakin Cəfərin 1920-ci ildə cəmi 21 yaşı var idi, gənc idi, özünə qürrəli idi. "Ümidi intiharə qalmışkən", "Dan ulduzu" şeirində olduğu kimi, ürəyində bir "ziya görünür", "onu işıqlı bir ideal" - "bir vüsalədək yaşamağa" sövq edirdi. Gənc Cəfər öz "şanlı idealı"nın "vüsalına" yetmək üçün mübarizə aparmış, bir müddət gizli təşkilatın yığıncaqlarında yaxından fəaliyyət göstərmişdir. 1923-cü ildə iki dəfə həbs edilmişdir.

A.Abdullazadə hələ 30 il əvvəl böyük sənətkarın "Məhkum Şərqə" şeirinin poetik kamilliyi, ümumiləşdirmə və tipikləşdirmə siqlətindən bəhs edərək yazırdı: "Şair həcmcə o qədər də iri olmayan bir şeirdə bütöv bir poemaya mövzu ola biləcək bəşəri bir məsələni uğurla qələmə almağa nail olmuşdur... O, təkcə Cabbarlı yaradıcılığında deyil, bütün Şərq şeirində ən təsirli, ifadəli poeziya nümunələrindəndir.

C.Cabbarlının şeir yaradıcılığına əksər pyeslərində müxtəlif məqamlarda rast gəlinən lirik nümunələr də daxildir. Bu barədə Sona xanımın xatirəsində oxuyuruq: "Cəfərin belə bir xasiyyəti var idi: bir pyes yazmağı düşünəndə əvvəl onun qəhrəmanlarından birinin mahnısını fikirləşirdi. Bəzən bunu xalq mahnılarından götürür, bəzən də özü yeni bir mahnı yaradırdı. Sözlərini yazır, hətta musiqisini də özü bəstələyirdi. Bu mahnını uzun zaman dodaqaltı oxuyur, pianoda çalırdı, sonra pyesi yazmağa başlayırdı".

Həqiqətən, yaradıcılığa şeirlə başlayan C.Cabbarlı sonradan bir dramaturq kimi püxtələşdikcə, istər romantik, istərsə də realist üslubda qələmə aldığı pyeslərində qəhrəmanların xarakterinə, ruhi vəziyyətinə həmahəng lirik parçalarla əsərini daha təsirli edirdi. Gərgin dramatik konfliktlər, altunun hökm sürdüyü ictimai mühitlə barışmaz ziddiyyətdə vurnuxan, buna görə də şəxsi həyatında sarsıntılı olaylara düçar olan gənclərin nitqində bu şeirlər çox təbii səslənir və romantik motivə rəng qatırdı. Belə ki, onun 16 yaşında ikən yazdığı ilk pyesi "Vəfalı Səriyyə"dən başlamış son pyesi "Dönüş"ədək, demək olar ki, bütün pyeslərində şeir parçaları mövcuddur. Bunlardan bir qisminə C.Cabbarlı özü musiqi bəstələmiş, bir qismini isə seçdiyi xalq mahnısının avazında sədalandırmışdır. Sona xanımın xatırlamasına görə "Od gəlini" pyesində Solmazın, "Sevil" pyesində Sevilin, "Almaz"da Yaxşının, "1905-ci ildə" pyesində Sonanın və s. nəğmələri dramaturqun öz bəstələri olsa da, xalq mahnıları kimi yayılıb sevilmişdir. "Aydın" pyesindəki "Qalanın dibində bir quş olaydım...", "Oqtay Eloğlu"nda "Mən aşiq neylim sənə, Düşübdü meylim sənə..." kəsmə şikəstəsi, "Yaşar"dakı "Küçələrə su səpmişəm" nəğmələrinin bir-iki misrası xalq mahnısından olub, qalan bəndlər müəllifin qəlbinin əks sədaları idi. Çünki personajlarının dilindən səslənən bu nəğmələrin, şeirlərin Vətən azadlığı sarıdan bağrı yanıq qalmış sənətkarın özünə doğma ağrılar olduğunu duymamaq, dərk etməmək mümkün deyil.

"Oqtay Eloğlu"dan:

Qarlı dağlar aşaram,
Yorulmadan qoşaram,
Bir ümid, bir işıq yox,
Bilməm neçin yaşaram?!

"Od gəlini"ndən:

Küskün tale, ulu tanrım, istəyindən gülümsər,
Dərdli insan sənə tapqın, ulu Hürmüz, yol göstər...

Hər bir qanun azadlığa bir yağı,
İnsan oğlu olmuş insan tapdağı,
Silkin uçsun köləliyin torpağı,
Qalx, qalx, qalx, düşkün dünya...

Yaxud: "Almaz" pyesində Yaxşının "Gərək günəş dağları aşıb sönməyəydi, Gərək mənim dönmüş taleyim dönməyəydi"; "1905-ci ildə" tamaşasında Sonanın hələ xoşbəxt günlərində oxuduğu:

Azad bir quşdum,
Yuvamdan uçdum...
Bir ovçu gördü,
Köksümdən vurdu,
Torpağa düşdüm
Bu gənc yaşımda...

ah-nalələri C.Cabbarlının iç dünyasındakı yaşantıların ifadəsi deyildimi?!

Şair kimi qəlbi xalqına, vətəninə, doğma insanlara ən coşqun məhəbbətlə, şəfqətlə dolu yazdığı bu şeirlər ona görə dəyərli və əbədiyaşardır ki, həm də dahi söz sənətkarımızın valehedici insani keyfiyyətlərini özündə yaşadır, mənəvi azadlıq duyğuları ilə təsirləndirir, dərin vətənpərvərlik hissləri oyandırır, oxucusunu da bir şəxsiyyət kimi zənginləşdirir. Bu poeziyada yaşayan Cəfər Cabbarlımızı sevir, onunla qürurlanır, ondan öyrənirik.

***Səfurə QULİYEVA,***
***AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun dosenti, filologiya üzrə fəlsəfə doktoru***



## ANA

Əgər bütün bəşəriyyət ədüvvi-canım ola,
Ürək süqut eləməz aldığı mətanətdən.
Ricavü xəvfə məkan vermərəm gər alimlər
Min il də vəz edələr dəhşəti-qiyamətdən.

Pələnglər tuta dövrüm, çəkinmərəm haşa,
Və ya ki, vəd edələr dövləti-cahanı mənə
Ki, bir kəsə baş əyib iəczimi bəyan eləyim,
Əyilmərəm nə ki yer, versələr səmanı mənə.

Yanımda gər dura cəllad əlində şəmşiri,
Ölüm gücilə mənə hökm edə olum təslim,
Əyilmərəm yenə haşa! Ölüm nədir ki, onun
Gücilə xalqa həqiranə eyləyim təzim?

Cahanda yox elə bir qüvvə baş əyim ona mən,
Fəqət nə güclü, zəif bir vücud var, yahu,
Ki, hazıram yıxılıb xaki-payinə hər gün,
Öpüm ayağını əcz ilə. Kimdir o? Nədir o?

Ana! Ana!.. O adın qarşısında bir qul tək
Həmişə səcdədə olmaq mənə fəxarətdir,
Onun əliylə bəla bəhrinə yuvarlansam,
Yenə xəyal edərəm bəzmi-istirahətdir.

Əs, ey külək, bağır, ey bəhri-biaman, ləpələn!
Atıl cahana sən, ey ildırım, alış, parla!
Dayamma, taqi-səmavi, gurulda, çatla, dağıl!
Sən, ey günəş, yağışın yağdır, ey bulud, ağla!

Bunlar mənə əsər eylərmi? Mütləqa yox! Yox! - Yox!!!
Fəqət Ana! O müqəddəs adın qabağında -
O pak bağrına bassın məni, desin layla,
Təbəssüm oynadaraq titrəyən dodağında.

Bütün vücudum əsər, ruhum eyləyər pərvaz,
Uçar səmalara o, aləmi-xəyalətdə.
Yatar, ölər bədənim, nitqdən düşər bir söz:
- Ana... Ana... Sənə mən rahibəm itaətdə!..

Aman... Aman!.. Bu müqəddəs vücudu mümkünmü
Ki, bir taqım canavar zülmnən şikar eləsin?!
Yıxıb da xaki-rəzalətdə, tapdayıb əzərək,
Ayaqlar altına torpaq kibi nisar eləsin?!

Zəlilü-xar edərək məhbəsi-əsarətdə,
O şanlı qollarına zülminən vurar zəncir.
Niyə? Neçin? Hanı vicdan? Hanı ədalət bəs?
Neçin də parlayıb etməz cahanı bir tənvir?

Aləmi, ədl-ədalət üzüldü dünyadən,
Neçin nəsibim edibsən bu zülm-dövranı.
Ey asiman, dağıl, ey zöhrələr axın, tökülün,
Ki, aləmi-bəşəriyyət unutdu vicdanı.

## AZƏRBAYCAN BAYRAĞINA

Buraxınız, seyr edəyim, düşünəyim, oxşayayım,
Şu sevimli üç boyalı, üç mənalı bayrağı.
Mələklərin qanadımı üzərimə kölgə salan?
Nə imiş bu, aman Allah?! Od yurdunun yarpağı!
Göy yarpaqlı, al çiçəkli yaşıl otlar topasımı?
Xayır, xayır? Çiçək solur, otlar yerdə tapdanır.
Fəqət bizim bayrağımız ucaları pək seviyor,
Yulduzlardan hilaldan da yüksəklərdə fırlanıyor.

Kölgəsində ay əyilib bir gözəli qucmada.
Qucaşaraq sevdiyilə yüksəklərə uçmada,
Şu görünüş bir ananın şəfqətinə oxşayor.
Düşündükcə zövqlərimi, vicdanımı oxşayor.
Bu ay, yıldız, boyaların qurultayı nə demək?
Bizcə böylə söyləmək!
Bu göy boya Göy Moğoldan qalmış bir türk nişanı,
Bir türk oğlu olmalı!
Yaşıl boya islamlığın sarsılmayan imanı,
Ürəklərə dolmalı!
Şu al boya azadlığın, təcəddüdün fərmanı,
Mədəniyyət bulmalı.
Səkkiz uclu şu yulduz da səkkiz hərli OD YURDU
Əsarətin gecəsindən flirsət bulmuş quş kibi,
Səhərlərə uçmuşdur
Şu hilal da türk bilgisi, düzgün sevgi nişani,
Yurdumuzu qucmuşdur!
Allah, əməllərim edib şu bayrağı intiqal,
Birər-birər doğru olmuş, bir ad almış: İSTİQLAL!
Yürəyimdə bir dilək var, o da doğru kəsilsin,
O gün olsun bir göy bayraq Turan üstə açılsın.

## Dünya olduğu kimi

# Dünyanın ən böyük gölü



Böyüklüyünə və bəzi fiziki-coğrafi xüsusiyyətlərinə görə Xəzər dəniz hesab olunur. Əslində isə o, dünya okeanı ilə bilavasitə əlaqəsi olmayan ən böyük göldür. Avropa və Asiyanın sərhədində yerləşir. Rusiya Federasiyası, Qazaxıstan, Türkmənistan, Azərbaycan və İran dövlətlərinin ərazisi ilə əhatə olunub. Xəzər dünyada ən böyük qapalı su hövzəsidir.

Xəzərin sahəsi 371 min $km^2$, sahil xəttinin ümumi uzunluğu (perimetri) isə 6380 km-dir. Ən enli yeri 466, ən ensiz yeri 204 km-dir. Suyun duzluluğu 13 faizdir, bu, dünya okeanında olduğundan üç dəfə azdır. Xəzər dənizinin səviyyəsi dünya okeanından xeyli aşağıdır və o, enib-qalxmalara meyillidir. Xəzərin şimal hissəsi azsuludur, onun orta dərinliyi 5 metr, maksimal dərinliyi 25 metrdir. Orta hissənin dərinliyi 180 metrdir, bəzi yerlərdə (Dərbənd çökəkliyi) bu göstərici 790 metrə çatır. Dənizin cənub hissəsi dərindir, burada maksimal dərinlik (Lənkəran çökəkliyi) 1025 metrdir.

Xəzərə əsasən şimaldan və qərbdən 130 iri və xırda çay tökülür. Onların içərisində Volqa xüsusi seçilir. Ümumi illik axının 90 faizi üç çayın - Volqanın (80 %), Kürün (6 %) və Uralın (5 %) payına düşür.

### Minillərə dayanan tarix

Mütəxəssislərin fikrincə, Mezozoy erasının başlanğıcında 30 min il davam edən Trias dövrü ərəfəsində Yer kürəsinin böyük sahəsini quru təşkil etmiş, sonralar həmin quru hissələrini su basdığına görə dəniz əmələ gəlmişdir. Elmi ədəbiyyatda Tetis adlandırılan bu dənizin bir tərəfi İspaniyaya, o biri tərəfi isə Zond adalarınadək çatırmış. Lakin Mezozoy erasının sonunda, yəni 70 milyon il davam edən Tabaşir dövründə gil, qum və əhəngdaşı çöküntülərinin uzun tarixi dövr ərzində toplanaraq, suyun səthinə çıxması quru əmələgəlmə prosesinə güclü təkan vermişdir. Proses bu mərhələ ilə dayanmayıb davam etmiş, nəticədə Xəzər dənizi Qara dəniz hövzəsindən tədricən ayrılmışdır. Amma tarixin müxtəlif dövrlərində Xəzərin sahəsi bəzən böyümüş, bəzən də kiçilmişdir. Tədqiqatçılar bu hövzənin İrandan Samara şəhərinədək geniş əraziyə malik Ağcaqıl dənizi kimi də adlandırmışlar.

Xəzər dənizi haqqında ən qədim məlumatlara Assuriya gil qablarının üzərindəki yazılarda rast gəlinir və o, Cənub dənizi adlanır. Yunan tarix və coğrafiyaçısı Hekatey Miletskinin (e.ə. VI əsr) əsərlərində bu dəniz Kaspiy və Hirkan kimi adlanır. Birinci etnonim o zaman dənizin cənub-qərb sahillərində, müasir Azərbaycanın ərazisində yaşamış kaspi xalqının adı ilə əlaqədardır. İkinci ad dənizin cənub-şərq küncündə yerləşmiş Hirkan ölkəsindən (farsca "canavarlar ölkəsi" deməkdir) yaranmışdır. Ümumilikdə müxtəlif dövrlərdə, müxtəlif xalqlar arasında Xəzər dənizinin 70-ə qədər adı işlədilib.

Bu hövzə özünün gözəlliyi, sirli aləmi ilə hələ çox qədimdən məşhur səyahətçilərin, alimlərin, bəzi dövlət xadimlərinin diqqət mərkəzində olmuşdur. Xəzərdəki neft haqqında tarixi fakt məlumdur: e.ə. 331-ci ildə Makedoniyalı İsgəndər İranı mühasirəyə alarkən qurduğu çadırı Xəzər sahilində yaşayan sakinlərin gətirdikləri gil qabın içərisində yanan neftlə işıqlandırmışdır. E.ə. IV əsrdə yaşamış Flavi Arrianın məlumatına görə, hətta Makedoniyalı İsgəndər Xəzərin şimal və şərq okeanları ilə əlaqəsinin olub-olmaması haqda mübahisələrə son qoymaq məqsədilə əvvəlcə sərkərdə Partokla bu məsələni araşdırmağı tapşırmış, daha sonra bütün sahillərini yoxlamaq üçün cənubda dəniz donanmasının yaradılması haqda Heraklitə əmr vermişdir. Lakin İsgəndərin ölümü bu məsələni 40 il geri salır. Bunu onun varislərindən biri Selevk Nikator həyata keçirir. O, e.ə. 285-280-ci illərdə Hirkan hakimi Partokla əmr edir ki, bütün sahilboyu səfər etsin. Burada əsas məqsədlərdən biri Xəzərin xarakterini öyrənmək idi.

Bu hövzənin adı XV əsrdən müntəzəm olaraq Xəzər adlanır. İlk xəritəsi 1616-1617-ci illərdə çəkilib. Xəzərin yeni və daha dəqiq xəritəsi 1717-ci ildə tərtib olunub. 1731-ci ildə hidrocoğrafi tərkibdə ümumi xəritəsi nəşr edilib. XIX əsrin əvvəllərində Kolodkin birinci dəfə sahillərin kompas şəklini hazırlayıb. 1874-cü ildə isə iki cildlik "Qısa hidrocoğrafi təsvir və Xəzər dənizində üzməyə rəhbərlik" adlı bütöv atlas çap olunub.

XIX əsrin sonlarından isə Xəzərin geoloji tarixi, neft qaz yataqları, bioloji şəraiti və s. tədqiqatlar bilavasitə azərbaycanlı mütəxəssislərin mühüm xidmətləri sayəsində aşkar olunub.

"Dəniz hər il bir ovuc içi qalxmış və bir neçə yaxşı şəhərləri basmışdır". Bu cümlə 1320-ci ildə Xəzərin qərb sahilində tapılmış Marino-Sanuto xəritəsində yazılmışdı. Deməli, Xəzər çox geniş bir tarixə malikdir. Bu tarix onun əsrlərlə, minilliklərlə bölgədəki mühüm əhəmiyyətindən xəbər verir.

### Xəzərin zəngin sərvəti

Xəzərin altı da, üstü də qızıldı. Bu dənizin fauna və florasının özünəməxsus zənginliyi var. O, digər dəniz və göllərdən seçilir. Xəzərin sahil zonasında üç qoruq yaradılıb: Azərbaycanda Qızılağac, Rusiyada Həştərxan, Türkmənistanda Xəzər.

Xəzərdə 920-ə yaxın heyvan növünə rast gəlinir. Burada nərə cinsli balıqların bir neçə nadir növü var. Dünyadakı nərə balıqlarının təqribən 85 %-i Xəzər dənizində yaşayır.

Xəzər dənizində 10 milyona qədər quş qışlayır. Kambaladan başqa bunların hamısı Azov və Qara dənizdən gəlib, Xəzər dənizində inkişaf və böyümək üçün əlverişli şərait tapıb. Xəzər və sahilyanı zonanın müxtəlif biotiplərində 302 quş növü qeydə alınıb; onlardan 37-si su, 109-u suətrafı və 156-sı quru quşlar adlanır. Xəzər dənizi xüsusən qu quşlarının iri qışlama yeri kimi məşhurdur. Hər il 12 milyonadək quş miqrasiya zamanı bölgədən keçir və daha 5 milyon quş qışlamaq üçün burada qalır.

Xəzər dənizində 121 məməli növündən yalnız biri yaşayır. Bu, Xəzər suitisidir ki, ona başqa heç bir dənizdə rast gəlinmir. O, dünyada ən kiçik suitidir, uzunluğu 160 sm, çəkisi 100 kiloqramdır. Xəzər suitisinin populyasiyasının ölçüləri XX əsrin əvvəlindəki 1,5 milyon fərddən 80-ci illərin sonuna 360-400 min fərdədək azalıb. 1993-cü ildə Xəzər suitisi "Qırmızı kitab"a daxil edilib.

Azərbaycanda mövcud olan 300-dək palçıq vulkanının 170-dən çoxu Xəzərin Azərbaycan sektorunda ada və sualtı vulkanlarını təşkil edir. Xüsusilə onlar Cənubi Xəzərdə daha çoxdur. Xəzər dənizində, eyni zamanda böyük karbohidrogen yataqları var. Onun Azərbaycan sektorundan böyük miqdarda neft və qaz hasil olunur. Xəzər dənizinin əsas sərvəti dibindəki neft və qazdır. İlk dəfə məhz burada dənizdə neft hasilatı əldə edilib...

### Gözlənilən təhlükə

Hazırda Xəzərin ekoloji vəziyyəti olduqca gərgindir. Dənizin şelf zonasında problem daha kəskindir, artıq bu ərazilərdə ölü zonalar yaranıb. Bəzi yerlərdə çirkləndiricilərin qiyməti normanı 10-20 dəfə üstələyir. Ekspertlər xəbərdarlıq edirlər ki, Xəzər dənizi neft sənayesinin güclü inkişafı ilə əlaqədar olaraq daha da çirklənəcək.

Proqnoz hesablamalara görə, iqlim istiləşməsi Xəzər hövzəsinin rütubətliyini artıracaq, bu isə öz növbəsində yaxın illərdə onun səviyyəsinin 26.0-25.0 intervalında tərəddüdünə səbəb olacaq. Hesablamalar göstərir ki, Xəzərin səviyyəsinin 150 sm əlavə qalxması sahil ərazilərinin 87.7 min ha sahəsinin su altında qalması ilə nəticələnəcək və 2030-cu ildə bu rəqəm 136.2 min ha olmaqla ölkənin ümumi sahəsinin 1.6%-ni təşkil edəcək. 2003-cü ildə Xəzərin səviyyəsinin dünya okeanı səviyyəsindən 26.75 metr aşağı olduğu bildirilir.

Araşdırmalara əsasən, 250 il Xəzərdə enmə olur, sonra isə suyun səviyyəsi qalxır. 4 min il ərzində Xəzərlə bağlı 8 belə dövr müəyyən olunub. Təxminən 2050-ci ilə qədər Xəzər dənizinin səviyyəsinin enməsi proqnozlaşdırılır.

Rusiya Hidrometeorologiya Mərkəzinin və Xəzər dənizi Araşdırmaları Mərkəzinin mütəxəssisləri belə iddia ediblər ki, 2019-cu ilin dekabr ayına qədər Xəzər dənizində suyun səviyyəsi daha 15 santimetr azalacaq. Əgər bu proqnoz təsdiqini tapsa, Xəzər dənizi il ərzində 60 kub kilometr su itirə bilər. Bu da balıq populyasiyalarının azalmasını qaçılmaz edir.

*Xəyalə MURADLI, "Azərbaycan"*

## Bilirsinizmi...



- Ən sürətli əzələ göz əzələsidir. 1 saniyə ərzində 5 dəfə gözümüzü qırpa bilərik. "Bir göz qırpımında" ifadəsi də buradan yaranıb.
- Arıların gözlərində tük var. Bu tüklər küləyin istiqamətini müəyyən etməyə imkan verir.
- Biz gözlərimizlə yox, beynimizlə görürük. Baxmayaraq ki, mənzərə və şəkillərin bulanıq və keyfiyyətsiz görüntüsü gözlərin xəstəliyidir, görmə qabiliyyəti sırf beyin funksiyasıdır.
- İtlərin iybilmə qabiliyyəti insanlarınkından 100 dəfə yaxşıdır.
- Bu günə qədər qeydə alınmış ən böyük aysberq 200 mil uzunluqda və 60 mil enliliyində olub. Bu, Belçikadan daha böyük sahəyə malikdir.
- Burunda sakit tənəffüs zamanı hava axınının sürəti saatda 2,4 kilometr, asqıran zaman isə saatda 170 kilometr təşkil edir.
- Bayquş mavi rəngi görə bilən yeganə quşdur.
- Qarışqalar yatmırlar.
- Kosta-Rika ispan dilində "zəngin sahil" mənasını verir.
- 1998-ci ilə qədər Everest zirvəsinə çıxmağa çalışan 918 adamdan 146-sı ölüb.

# Bədənində 9 mindən çox pirsinq daşıyan qadın



Şotlandiyalı Elayn Devidson ən çox pirsinq etdirən qadın kimi Ginnesin Rekordlar Kitabına daxil edilib. İlk dəfə onun rekordu 2000-ci ildə qeydə alınıb.

O zaman 462 pirsinqdən 192-si baş və üzün ətrafında olub. 2005-ci ildə onun bədənində 3950, 2008-ci ilin mayında 5920 pirsinq vardı. 2012-ci ildə isə onun bədənində pirsinqin sayı rekord həddə - 9000-ə çatmışdı. Elayn bütün bəzəkləri eyni anda taxanda onların çəkisi təxminən 3 kq təşkil edir.

Kişilər arasında isə Almaniyada yaşayan Rolf Buxhols özünün ekstraordinar görünüşü ilə fərqlənir. O, 51 yaşında bədənində yüzlərlə bəzək əşyası daşıyırdı. Bundan başqa, onun bədən modifikasiyaları təkcə pirsinqlə məhdudlaşmır: Rolfun bütün dərisi müxtəlif ölçülü döymələrlə ala-bəzək edilib, başına isə hətta şeytan buynuzları şəklində olan dərialtı implantlar yeridilib.

# Xanımların təmizlik "dostu"

İlk paltaryuyan maşının ixtiraçısı almaniyalı Karl Müllerdir. Karl qadınların işini yüngülləşdirmək üçün 1899-cu ildə paltaryuyan maşını icad etdi.

Paltarların yuyulması üçün ağacdan hazırlanmış və pərlə işləyən qurğulardan istifadə olunurdu. Paltar silindrik ağac çənin içərisində xaricdəki dəstəyi irəli-geri hərəkət etdirməklə yuyulurdu. Yuma müddəti 10 dəqiqə məsləhət görülürdü. Sonra paltar çıxarılıb ağac ələyin üstünə qoyulurdu ki, suyu axsın.

1914-cü ildən etibarən paltaryuyan maşınlarda elektrik mühərriklərinin tətbiqinə başlanıldı. Dünyada ilk elektriklə işləyən paltaryuyan maşının ixtiraçısı amerikalı mühəndis Alva Fişerdir. İlk kombinə edilmiş paltaryuyan maşın isə Syevyec Armsın şirkəti tərəfindən istehsal olunub. Bu maşınlarda paltarı yumaq üçün silindrik şəkildə hazırlanmış çəndən istifadə edilirdi. Əvvəllər əl ilə fırlanan silindrik çən sonralar mühərriklə fırladılmağa başladı. Yan tərəfdə yerləşdirilmiş, elektrik mühərriki ilə hərəkətə gətirilən dişli çarx ötürməsinin köməyi ilə təhnə fırladılırdı. Su isə kənarda qızdırılırdı.

Paltaryuyan maşınların inkişafında əsas yenilik ötən əsrin 20-ci illərində təhnənin fırlanan barabanla əvəzlənməsindən ibarət oldu. Başqa üsullarla müqayisədə bu üsul öz üstünlüyünü göstərərək, geniş tətbiq edildi və bu günə kimi də paltaryuyan maşınların tərkib hissəsi sayılır.

1937-ci ildə "Bendix Corporation" şirkəti isə ilk tam avtomatik paltaryuyan maşınını istehsal etdi.



Yeni növ maşınların əsas hissələri tərpənməz bərkidilmiş su qabından və onun içərisində paltar doldurmaq üçün nəzərdə tutulmuş fırlanan barabandan ibarət idi. Bu maşınların əllə paltaryumaya nisbətən daha effektiv işləməsinə baxmayaraq 50-ci illərə qədər hələ də onların tam qələbəsindən danışmaq olmazdı. Onları yalnız imkanlı şəxslər ala bilirdilər.

Maşınların kütləvi istehsalına başlandıqdan sonra onların qiymətləri əhali tərəfindən alıcılıq qabiliyyətinə uyğunlaşdı. İndi demək olar ki, hər ailədə paltaryuyan maşın var.



## Sağlıq olsun

# Qanadlı təhlükə

**Həkim məsləhəti**



**Yay aylarında arı sancmaları ilə bağlı hallar artır. El arasında arı sancmalarının insan orqanizminə şəfaverici təsiri olduğu bilinsə də, bəzən bu, ölümə yol aça bilər. Məsələn, allergiyaya meyilli insanlarda, uşaqlarda arı sancması ağır allergik reaksiyanın, hətta anafilaktik şokun inkişafına gətirib çıxara bilər.**

Kliniki Tibbi Mərkəzin Toksikologiya şöbəsinin müdiri, toksikoloq Azər Maqsudov deyir ki, arı sancmasından sonra şok vəziyyəti, ölüm daha çox həssas insanlarda baş verir: "Arının neştərində zəhər həddindən artıq azdır. Bu zəhərin həm təsiri azdır, həm də miqdarı. Zəhərin kimyəvi tərkibi də biokimyəvi maddələrlə zəngin deyil. Bu prosesdə əsasən orqanizmin həssaslığı rol oynayır. İnsanın orqanizmi həssas olur, arı sancmasından şok yaşayır və bu da onun ölümünə səbəb ola bilər".

Toksikoloq belə hadisələrə nadir hallarda rast gəlindiyini bildirərək izah edir ki, arı sancması zamanı insanın ölümünə səbəb arının neştərindəki zəhər deyil: "Arı sancmasından ölüm yalnız o halda ola bilər ki, arı insanı ağız, baş, boyun nahiyəsində yerləşən yumşaq toxumalardan sancsın. Belə halda da çox vaxt ölüm baş vermir. Arı qida məhsulu ilə insanın ağız boşluğuna daxil olsa, orada dil və ya digər yumşaq toxumaları sancsa, şok vəziyyət yarada bilər. Həmin vəziyyətdə insan ölə bilər. Digər halda arı sancması nəticəsində ölüm müşahidə olunmur".

### Arılar insanı o zaman sancır ki...

Arılar insanları yalnız təhlükə hiss etdikdə sancır. Odur ki, həşəratları görəndə dərhal təşvişə düşməmək, onları qovmağa çalışmamaq və sakit qalmaq lazımdır.

Dil, dodaq, qırtlaq və üz nahiyəsinin sancılması çox təhlükəli hesab olunur. Çoxlu sayda sancmalar zamanı ağır intoksikasiya (zəhərlənmə) baş verər. Bu halda insanı xəstəxanaya tez çatdırmaq lazımdır.

Arı sancmasından dərhal sonra insana hər hansı allergiya əleyhinə (antihistamin) dərman vermək lazımdır. Bunu insanda heç zaman allergiya olmayıbsa belə mütləq etmək lazımdır. Xüsusilə uşaqdırsa.

Ağrı çox narahat edirsə, hər hansı ağrıkəsici preparat vermək olar. Uşaqlara hərarətsalan preparatlardan biri verilir. Bu preparatlar həmçinin ağrıkəsici kimi istifadə olunur.

Zədələnmiş yeri axar su ilə yuyub, istənilən antiseptik ("perekis", spirt, yod və s.) vurmaq lazımdır.

Zərərçəkmişə bol maye (isti şirin çay, şirin su və s.) verin.

Əgər həşəratın sancmasından sonra allergiyanın əlamətləri (ümumi zəiflik, baş ağrısı, başgicəllənmə, ürəkbulanması, arterial təzyiqin kəskin enməsi, nəbzin artması, təngnəfəslik, bəzən hətta qıcolmalar və bayılma) meydana çıxıbsa, xəstəni dərhal xəstəxanaya çatdırın.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## Bilirik?

- Məşhur bəstəkar Lüdviq Van Bethoven son əsərini kar olanda bəstələyib.
- Dünyada nadir rast gəlinən xəstəliklərdən biri "pupula duplex"dir. Bu xəstələrin gözündə iki bəbəyi olur.
- İnsan öldükdən 7 dəqiqə sonra beyin ölümü baş verir. 7 dəqiqə içində insanın xatirələri gözünün qabağından keçir.
- İnsan beyninin həcmi 4 terabaytdan çoxdur.
- İnsanda yaranan xəstəliklərin 90 faizinin səbəbi stresdir.
- İnsanın yaddaşı səhər 8-dən gündüz 12-yə kimi və axşam 9-dan sonra daha yaxşı işləyir.

**Xalq təbabəti**

# Baş ağrısından 30 saniyədə qurtuluş



**Baş ağrısından şikayət edənlər çox sadə bir üsulu sınayaraq 30 saniyədə narahatlıqdan və stresdən xilas ola bilərlər.**

Bunu bədəndəki aktiv nöqtələr sayəsində etmək mümkündür. Belə ki, bu nöqtələr masaj ediləndə ağrılar azala, hətta tamamilə aradan qalxa bilər.

Şəhadət barmağınızla baş barmağınız arasındakı nöqtəyə təzyiq edərək baş ağrısından xilas ola bilərsiniz. Təzyiqi 30 saniyə ərzində davam etdirin. Bunu digər əlinizə də tətbiq edin. Doğru tətbiq etdiyiniz halda baş ağrınızın keçdiyini görəcəksiniz.

**Şəfalı bitkilər**

# Ürəyin dostu



Reyhan bitkisinin ətri və dadı ilə yanaşı, faydaları da çoxdur. Ürək xəstəliyi, nəfəsalma problemi kimi ciddi xəstəliklərin müalicəsində reyhan əvəzolunmaz təsir göstərir. Tərkibində antibakterial, antioksidləyici kimi xüsusiyyətləri var:

- sinir sistemini yaxşılaşdırır, depresiyanı azaldır, sakitləşdirici və yuxuverici təsir göstərir;
- orqanizmi xərçəngə qarşı qoruyur;
- miqren və yaddaş problemini azaldır;
- immunitet sistemini gücləndirir;
- bronxlara və ağ ciyərə müsbət təsir edir;
- dəriyə çox faydalıdır;
- həzmi asanlaşdırır;
- mədə bulantısı və bağırsaq parazitlərini azaldır;
- mədə və bağırsaqdakı köpün və şişkinliyin azalmasına kömək edir.

Reyhanı təzə-tər yemək lazımdır. İfrata varmaq lazım deyil. Bitkinin bir neçə kiçik yarpağı da öz müsbət təsirini göstərmə gücünə malikdir.

**Orqanizmə qulluq**

# Dünya işığına həsrət qalmayın



**Kompüterdən, telefondan çox istifadə etmə nəticəsində əksər insanlarda göz narahatlığı, bir çox hallarda zəifləmə baş verir.**

Gözü qorumaq üçün aşağıdakı nüanslara diqqət etməyiniz vacibdir:

**1. Göz qızarıqlığına ciddi yanaşın**

Gözlərinizdə qaşıntı və ya qırmızılıq varsa, soyuq kompres, antiallergik, göz damlalarından istifadə edin. Gözünüzə qum qaçmış kimi hiss edirsinizsə, gözlərinizi təmiz su və ya gözyaşı damlası ilə durulayın. Gözlərinizdə ağrı, şişmə, işığa həssaslıq kimi dəyişikliklər hiss etdikdə mütləq həkimə müraciət edin.

**2. Gözlərinizin sağlamlığı üçün düzgün qidalanın**

Sitrus bitkiləri, tünd yaşıl yarpaqlı tərəvəzlər, lobya, noxud, yağsız ət və dənli bitkilər kimi həzm prosesinə köməkçi olan qidalar ürəklə yanaşı, göz sağlamlığınıza da yararlıdır. Kök, balıq, üzüm, soğan və sarımsaq gözlərinizin sağlamlığı üçün köməkçi qidalardır. Sarı nöqtə xəstəliyinin qarşısını almaq üçün ispanaq, pomidor və qarağatdan, tərkibində C, E və A vitaminləri, maqnezium, selenium, sink kimi mineralları olan qidalardan da istifadə edə bilərsiniz.

**3. Kompüterdən istifadə edərkən fasilə verin**

Kompüter gözlərinizə zərər verməz, amma göz yorğunluğu və quruluğuna səbəb ola bilər. 20/20/20 qaydasına əməl edin. Yəni 20 dəqiqədən bir, 20 saniyə müddət ilə 20 feet (təxminən 6 metr) uzağa baxmağa çalışın. Bundan əlavə, monitorunuzu üst kənarı göz səviyyəsində olacaq şəkildə təxminən 50-60 sm məsafədə yerləşdirin.

**4. Gün eynəyi yalnız aksesuar deyil**

Günəş dəriniz kimi, gözlərinizə də zərər verə bilər. Katarakt xəstəliyini sürətləndirdiyi kimi, günəş şüaları sarı nöqtə xəstəliyinə da səbəb ola bilər. Bundan əlavə, allergik şikayətlərin artmasının əsas səbəblərindən biri günəş şüalarıdır. Çöldə olduğunuz günlərdə hava buludlu olsa da gün eynəyindən istifadə edin.

**5. Linzaların təmizliyinə diqqət yetirin**

Linzalardan istifadə etməzdən əvvəl əllərinizi sabunla yuyun. Göz həkimi tərəfindən təsdiq edilmiş damla və məhlullardan istifadə edin. Linzaları yatmazdan əvvəl hər axşam çıxarın və istifadə xüsusiyyətlərinə görə hər 15 gün və ya bir aydan bir (maksimum halda 3 aylıq linzalardan istifadə edin) yenisi ilə dəyişdirin. Linzaları təmizləmək üçün istifadə etdiyiniz məhlulları hər gün yenisiylə dəyişdirməyə laqeyd yanaşmayın. Dənizə, ya da hovuza linzaları çıxarmadan girməyin. Linzalardan gün ərzində 8 saatdan artıq istifadə etməyin. Kompüterdən istifadə edərkən gözləriniz sürətlə quruduğu üçün linza əvəzinə eynəkdən istifadə edin.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## ALLAH RƏHMƏT ELƏSİN!

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Sumqayıt Apelyasiya Məhkəməsinin hakimi Fuad Məmmədova anası

**VƏZİFƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

İsmayıllı Rayon Məhkəməsinin sədri Rəfayel Şirinov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Göygöl Rayon Məhkəməsinin sədri Qələmdar Abbasov və məhkəmənin kollektivi Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8906
Sifariş 2418
Qiyməti 40 qəpik